www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 dekabr 2014-cü il Cümə axşamı № 296 (6005) Qiyməti 40 qəpik

**Xəbər**

## Deputatımızın qardaşı oğlu müəllimi öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Qubad İbadoğlu Azərbaycan Demokratiya və Rifah Hərəkatı yaratdı



Müsavat rəhbərliyində yeni qurumun yaradılmasına müsbət baxan da, fərqli düşünən də var

yazısı səh.6-da

### "Rauf Arifoğlu İsa Qəmbərə hücum edib" iddiası gerçəkdirmi?

yazısı səh.3-də

*Zəfər Quliyev:*

### "Rusiya bu potensialla uzun müddət "soyuq savaş" apara bilməz..."

yazısı səh.10-da

### "People in Need" "Yeni Müsavat"a cavab verdi, mübahisə qapandı...

yazısı səh.3-də

### Narazı müsavatçılar da Müsavatın mitinqinə qatılacaqlar

yazısı səh.4-də

### Leyla Yunus təcridxanada təzyiqlərə məruz qaldığını deyir

yazısı səh.7-də

### Ankara-Moskva yaxınlaşması Qərbi şoka salıb

yazısı səh.9-da

### "Dərnəgül yolu"nda körpü istifadəyə verilməmiş təmirə dayandı

yazısı səh.13-də

### Amerikanın Qarabağ məsələsində ikibaşlı oyun cəhdi...

yazısı səh.11-də

### Bərdədə yol polisini yandırdılar

yazısı səh.14-də

### Qaraçuxur məscidini yandıran PKK-çılar haqda müdhiş faktlar

yazısı səh.12-də

### Masazırda Zərifə Əliyevanın adını daşıyan küçə bərbad haldadır

yazısı səh.13-də

## Vaşinqtonla Bakının münasibətləri pik həddə

# ABŞ-AZƏRBAYCAN SAVAŞI - KRİTİK DÖNƏM BAŞLADI

XİN və PA-dan sonra Milli Məclisdən Amerika əleyhinə sərt bəyanat gəldi; hakimiyyəti tənqid edən Birləşmiş Ştatlar terrorizmi dəstəkləyən ölkəyə çevrilməkdə ittiham olundu; yaşanan gərginlik yeni səfir təyinatına imkan verəcəkmi?



yazısı səh.5-də

## Bakıda gəlini toya vertolyotla aparacaqlar

Rusiyanın bir çox əyalət şəhərlərində artıq yeni evlənən cütlük şadlıq evinə hava maşınında gətirilir; bu, azərbaycanlı milyonçuların da diqqətini çəkib

yazısı səh.7-də



*Atilla Kaya:*

### "Türkiyə-Ermənistan sərhədlərinin açılması Rusiyanın milli maraqlarına uyğun deyil"

yazısı səh.8-də



### "Rövşən Lənkəranski"ni "vuran" gizli əllər kimindir?

yazısı səh.12-də



### İlham Əliyevdən mühüm mesajlar

yazısı səh.9-da

**4 dekabr 2014**

YENİ MÜSAVAT
N 296 (6005) 4 dekabr 2014



## Prezident hərbi xidmətə çağırışla bağlı sərəncam verdi

**Azərbaycan prezidenti İlham Əliyev vətəndaşların 2015-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir:

1. 1997-ci ildə doğulmuş və çağırış günündədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2015-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2015-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

## "Coca-Cola"nın direktorunu Azərbaycan vətəndaşı öldürüb?

**Sankt-Peterburqda yoxa çıxan "Coca-Cola ABC Avrasiya" zavodunun direktoru 37 yaşlı Dmitri Soşnevin meyiti tapılıb. Artıq qətldə ittiham edilən şəxslər saxlanılıb. Polisin məlumatına görə, onlardan biri 28 yaşlı Azərbaycan vətəndaşı Denis Çxitauri və 46 yaşlı Vyaçeslav Finoqeyevdir.**

Məlumata görə, onlar iş adamına Frunzensk rayonunda görüş təyin ediblər. Orada direktora atəş açılıb.

Daha sonra onlar mərhumun üzərindəki 150 min rubl (təqribən 2190 manat) pulu və maşının sənədlərini götürərək hadisə yerindən qaçıblar.

Şübhəli şəxslər hadisəni törətdikləri yeri göstəriblər. Artıq meyit tapılıb.

ANS PRESS-in məlumatına görə, axırıncı dəfə direktoru zavodun ərazisində noyabrın 28-də görüblər. Yoxa çıxdığı gün Soşnevin üstündə böyük məbləğdə pul olub. Dekabrın 1-də qohumları onun itkin düşməsi haqda polisə müraciət edib.

"Vesti"nin məlumatına görə, Soşnev uzun müddət narkotik maddə istifadəçisi olub. Onun narkotik üstündə yaranan mübahisəyə qurban gedə biləcəyi istisna edilmir. Öldürülən direktorun iki uşağı olub.

## Dilqəm Əsgərov və Şahbaz Quliyevin "məhkəməsi" başa çatır

**Kəlbəcərdə ermənilər tərəfindən girov götürülən azərbaycanlılar - Dilqəm Əsgərov və Şahbaz Quliyevin üzərində Xankəndində qurulmuş "məhkəməsi" başa çatmaq üzrədir. "KarabakhİNFO.com" beynəlxalq e-jurnalının məlumatına görə, bu barədə erməni mediasına Şahbaz Quliyevin "vəkili" Arkadi İsraelyan bildirib.**

Dekabrın 3-də keçirilən "proses"də Azərbaycanda əsirlikdə olmuş Akop İnciqulyan ifadə verib.

Qeyd edək ki, "məhkəmə" bu il oktyabrın 27-də başlayıb. Xatırladaq ki, bu ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüblər, digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

## Ümid Partiyası "Yeni Müsavat"a dəstək oldu

### Partiya rəhbərliyində təmsil olunan şəxslər qəzetə olan basqıları pisləyərək azad sözün yanında olduqlarını vurğulayıblar

**Dekabrın 3-də Ümid Partiyası rəhbərliyində təmsil olunan bir qrup siyasətçi "Yeni Müsavat" qəzetinin qonağı olublar. Ümid Partiyasının təmsilçiləri Tamilla Məmmədova (Qulami), Ramin Hacılı, Mahirə Məmmədzadə, Həcər Abbaslı, Günel İbadova (Xəzəl) və Araz Şamil qəzet rəhbərliyi ilə görüşüblər.**





Onlar son günlər "Yeni Müsavat" qəzetinə və rəhbərliyinə qarşı basqılardan narahat olduqlarını bildiriblər, basqıları pisləyərək azad sözün yanında olduqlarını deyiblər. Ümidçilər həmçinin qəzetə yenidən abunə yazılaraq dəstəklərini ifadə ediblər. Eyni zamanda onlar qarşıdan gələn bələdiyyə seçkiləri ilə bağlı başlayacaq kampaniyada qəzetin köməyinə ümid etdiklərini vurğulayıblar və seçkilərə qəzetin diqqət ayırmasını xahiş ediblər.

**Ramin Hacılı bildirib ki, onlar azad sözün yanındadırlar:** "Biz daim azad sözün yanındayıq. Hər hansı bir qurum, yaxud şəxs tərəfindən azad sözə qarşı basqılar olanda, azad sözün yanında olmuşuq. Hələ bunlar azad söz iddiasındadırlar. Bu cür çamuratmalarla kampaniya aparanların əllərində digər resurslar olsa, daha fərqli istiqamətlərdə iş görərdilər".

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu isə bildirib ki, ölkədə demokratik ideologiyaya bağlı komponentlərin hamısı böhran keçirir:** "Bu, ümumi böhrandır".

**Ümid təmsilçiləri bildiriblər ki, bələdiyyə seçkiləri ilə bağlı cəmiyyətdə aktivlik hiss olunmur. Partiyadan cəmi 138 nəfərin bələdiyyəyə namizədliyinin qeydə alındığını bildirən R.Hacılı iddialı namizədlərin sayının 1700 nəfərdən çox olduğunu söyləyib. O qeyd edib ki, proses başlayan kimi ümidçilərə təzyiqlər edilərək onların namizədliyini verməmələri üçün proses aparılıb:** "Bu, bizi narahat edir. Biz tək qaldıq meydanda. Seçkinin alternativi yaxşı yollar deyil".

**R.Arifoğlu da dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı zəif kampaniyanın getdiyini bildirib, həmçinin dəstək vəd edib:** "Biz seçkiyə qatılan ümidçilərə, müsavatçılara, hətta cəhbəçilərə də təmənnasız dəstək verməyə hazırıq. Əlimizdə olan imkanlarla dəstək ola bilərik".

**Sonda Ümid rəhbərliyi "Yeni Müsavat"a dəstək olaraq abunə yazılıblar.**

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

## Hacıqabul sakini hüquq-mühafizə orqanlarından kömək istəyir

**Hacıqabul rayon sakini Elşən Məlikov redaksiyamıza müraciət edərək dələduzluqla üzləşdiyini deyib. Onun sözlərinə görə qonşuları Taleh Səfərlinin həyat yoldaşı Pərvanə Səfərli iş düzəldəcəyi adı ilə ondan 20 min manat pul alıb və qaytarmır:**

"Hacıqabulda həyətlərimizin arasında bir hasar var. Pərvanə Səfərli hazırda Bakıda yaşayır. Qayınatasının evinə gəlib-gedəndə dedi ki, qardaşım oğlu Müşfiq Məlikovu Bakıda 1500 manatlıq əmək haqqı olan işə düzəldə bilər. Buna bizi inandırdı. Qardaşım rəhmətə getdiyindən düşündüm ki, oğlunu işə düzəldərəm, ailəsini dolandırar. Dedi ki, banklardan birindən 20 min manat pul götürüb ona verək ki, işi düzəltsin. 6 mart 2014-cü ildə banka Hacıqabulda həyət evimi girov qoyub 20 min manat pul götürdüm. 7 mart 2014-cü ildə Hacıqabuldan taksi ilə Pərvanəyə 5 min manat pul göndərdim. Sonradan da hissə-hissə ona 12 min göndərmişəm. Mart ayının 2-dən bu yana Pərvanə Səfərli bizə vəd verməklə məşğul oldu. İndi də deyir ki, get hara istəyirsən şikayət elə. Lazım olan yerdə deyəcəm ki, məni şantaj edib şərləyirsiniz". Şikayətçi qeyd edir ki, P.Səfərli həyat yoldaşının Prezident Administrasiyasında işlədiyini iddia edir: "Bizə bankdan kredit götürmək üçün bir arayış vermişdi. Guya yoldaşım "YAKUP UCAR" MMC-də işləyir. Baş prokurordan, daxili işlər nazirindən xahiş edirəm ki, dələduz qadın barəsində ölçü götürsünlər və pulumuzu qaytarsınlar. Çünki bankdan götürdüyüm 20 min manatın faizini hər ay çox çətinliklə ödəyirəm".

❑ **E.HÜSEYNOV**

**Redaksiyadan:** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

## QAT-ın aksiyasında qarşıdurma



**Qarabağ Azadlıq Təşkilatı Qadınlar Şurası BMT-nin Bakı ofisinin qarşısında Ermənistandakı girovlarımızla bağlı aksiya keçirməyə cəhd edib. Hafta.az-ın xəbərinə görə, polislər aksiyaçıları BMT-nin Bakı ofisinin qarşısına buraxmayıblar. Onlar isə öz növbəsində bildiriblər ki, beynəlxalq təşkilatdan onları qəbul etməyənə kimi aksiya keçirməyə çalışacaqlar. Aksiyaçılar BMT-nin Bakı ofisinin qarşısında "Cavab ver!" şüarını səsləndiriblər: - "Rədd ol, BMT", "Düşmənə ar olsun!".**

Qara əklili isə artıq aksiyaçılar beynəlxalq təşkilatın ofisinin həyətinə atmağı bacarıblar.

## 3 yaşlı uşaq körpə bacısını güllələdi

**Dekabrın 2-də Kürdəmir rayonunun Carlı kəndində dəhşətli hadisə baş verib. Lent.az-ın əldə etdiyi məlumata görə, kənd sakini olan 1 yaş yarımlıq Məmmədova Heyran Elnur qızı aldığı güllə yarasından dünyasını dəyişib. Azyaşlı qız 3 yaşlı qardaşının ehtiyatsızlığı nəticəsində tüfəngdən açılan atəş nəticəsində ölüb. Baş nahiyəsindən ağır xəsarət alan H.Məmmədova yerində cə keçinib.**

Bildirilir ki, azyaşlıların atası Elnur Məmmədov mütəmadi olaraq həyətə soxulan çaqqalı vurmaq üçün tüfəngi doldurub və stolun üstünə qoyub. Axşam saatlarında otaqdan çıxan E.Məmmədovun 3 yaşlı oğlu silahı götürüb və ehtiyatsızlıqdan atəş açılıb.

Olayla bağlı məlumat hüquq-mühafizə orqanlarına azyaşlı qız dəfn olunduqdan sonra - dünən daxil olub. Faktla bağlı araşdırmalar davam etdirilir.

## Baş Qərargah rəisi cəbhə bölgəsinə gedib

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun əmrinə əsasən Azərbaycan Silahlı Qüvvələrinin yeni tədris ilinə hazırlığı yoxlanılır. APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovun rəhbərliyi ilə Baş Qərargahın zabitlərindən ibarət qrup cəbhə bölgəsində yerləşən hərbi birlik və birləşmələrdədir.**

Yeni tədris ilinə hazırlıq məqsədilə keçirilən kompleks tədbirlər çərçivəsində bütün birlik, birləşmə və hərbi hissələrin döyüş qabiliyyəti, maddi-texniki-tədris bazasının vəziyyəti və digər təminat növləri, silah-sursat, hərbi texnika ilə təchizatı, şəxsi heyətin mənəvi-psixoloji durumu, nizam-intizamı və sosial şəraiti yoxlanılır.



## Hacıbala Abutalıbovun işçisinin həbsi tələb olundu

**"BŞİH-in işçisi Nizami Quliyev kimdir ki, onu bu qədər himayə edən var? Bunu mənə açıq desinlər". Bu sözləri redaksiyamıza müraciət edən Bakı sakini Veronika Tarbayeva deyib. Onun sözlərinə görə, Bakı şəhər prokuroru Əziz Seyidov ona mülkiyyəti ilə bağlı şikayətinin yoxlanacağını deyib:**

"Qəzetiniz vasitəsilə baş prokurorun 1-ci müavini Rüstəm Usubova müraciətimdən sonra Əziz müəllim məni qəbul etdi. Buna qədər isə köşkümün oğurlanması faktına görə Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsi ilə cinayət işi başlanmışdı. Həmin cinayət işi araşdırıldığı bir müddətdə mənə deyirdilər ki, sizin heç bir əmlakınız oğurlanmayıb. Sonradan da yazdılar ki, guya köşk qarışıq oğurlanan malları mənə qaytarıblar. Axı mənə heç nə qaytarılmayıb. Necə qaytarıla bilərdilər ki, köşkdə mən keksdən tutmuş lavaşa qədər satırdım. Yəni həmin mallar 2012-ci il sentyabrın 4-dən 5-nə keçən gecə köşk oğurlanarkən içində olub. Yazırlar ki, guya malları 2013-cü ilin ortalarında qaytarıblar. Bunu da əsas götürüb cinayət işini xitam ediblər. Əziz Seyidovdan bir daha xahiş edirəm ki, həmin xitam qərarını ləğv edib cinayət işini davam etdirsinlər".

V.Tarbayeva N.Quliyev cəzasına çatana qədər mübarizə aparacağını bildirib. Qeyd edək ki, 2012-ci il sentyabrın 4-dən 5-nə keçən gecə V.Tarbayevanın kirayə etdiyi köşk oğurlanıb. Zərərçəkən iddia edir ki, köşk özünü Bakı Şəhər İcra Hakimiyyətinin işçisi kimi təqdim edən Nizami Quliyevin göstərişinə əsasən oğurlanıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Rauf Arifoğlu İsa Qəmbərə hücum edib" iddiası gerçəkdirmi?

**AXCP sədri Əli Kərimlinin təşkilatçılığı və rəhbərliyi ilə "Yeni Müsavat" qəzetinə, o cümlədən baş redaktor Rauf Arifoğluna qarşı kampaniya bütün şiddəti ilə davam edir. Bu kampaniya dövründə çoxçeşidli böhtanlar, şərləmələr ifadə olunmaqdadır. Ən müxtəlif təhqirlər, söyüşlər sosial şəbəkələrdə yer almaqla yanaşı, Əli Kərimlinin nəzarətində olan "Azadlıq" qəzetinin səhifələrində də baş redaktorla bağlı şantaj xarakterli, mənəvi terror mahiyyətli yazılar dərc olunmaqdadır.**

## Baş redaktor: "Bunlar həm də məqsəd güdürlər ki, Müsavat Partiyasının fəallarını və rəhbərliyini mənə qarşı qoysunlar, bu da boşuna bir şeydir"

Lakin bizim diqqətimizi bu ittiham və böhtan kampaniyasının içərisində bir siyasi çalar cəlb etdi. Əli Kərimlinin mirzələri və yaxın çevrəsi, hətta müavinləri statusunda olan şəxslər birdən-birə yazmağa başladılar ki, Rauf Arifoğlu İsa Qəmbərə hücum etdi. Sonra da bunun üzərində uzun-uzadı təhlillər qurdular ki, o niyə İsa Qəmbərə hücum etdi.

**Oxucuların diqqətinə "axe-ce-pe-çilər" tərəfindən hücum kimi təqdim olunan Rauf Arioğlunun aşağıdakı açıqlamasını çatdırırıq:** "Müxalifətin yeganə sağ və bütöv qalan bir təşkilatı var idi-Müsavat Partiyası, amma artıq bu partiya da böhran içindədir. Əgər dəyişim olardısa, o, əsas aktyorlardan birinə çevrilə bilərdi. Hesab edirəm ki, başqanımız İsa bəyin yanlış qərarı nəticəsində o da böhrana girdi. Əminliklə deyirəm ki, o, başqanlıqdan getməməliydi, qalmalıydı. Bizə başqanımızın demokratiya nümunəsi göstərməsi lazım deyildi, biz bu barədə ədəbiyyat oxumuşuq. Bizə başqanımızın bizi hakimiyyətə gətirməsi lazım idi. Başqan olandan 21 il sonra "ortaya nümunə qoyacam" deyib, başqanlıqdan getməsi bizə, mənə lazım deyildi".

Hətta tənqid belə sayılmayan bu fikrin "axe-ce-pe-çilər" tərəfindən bu dərəcədə hücum kimi qələmə verilməsinin səbəbini soruşmaq, bununla bağlı gedən kampaniyaya münasibət öyrənmək üçün Rauf Arifoğlunun özünə müraciət etdik və sual verdik ki, siz doğrudan da İsa Qəmbərə hücum etmisinizmi?



**O gülərək dedi ki, Əli Kərimlinin ətrafındakı zombilərdən fərqli olaraq, İsa Qəmbərin ətrafında öz fikri, rəyi olan insanlar, müstəqil və güclü siyasətçilər cəmləşiblər. Onlar zaman-zaman İsa Qəmbər haqqında pozitiv fikirlərlə yanaşı, tənqidi fikirlər də söyləyiblər:** "Mənim söylədiklərim isə yeni deyil. Təxminən 2 ildən çoxdur ki, mən bunları söyləyirəm. Bir vaxtlar bunu gələcək zaman kateqoriyasında söyləyirdim ki, İsa bəy başqanlıqdan getməməlidir, təşkilat böhrana girəcək, biz uzun bir yolun yolçusuyuq, bu bir fraqment deyil, bu bir missiyadır. Hətta bunu İsa bəyin özünə də, iclaslarda da, qəzetlərdə də söyləmişəm, yazmışam. Bu, həmin fikrin bir növ yenidən təkrarı idi. Amma bu dəfə keçmiş zaman şəkilçisi əlavə edərək dedim... Artıq təşkilatımız məhz İsa bəyin başqanlıqdan getməsi nəticəsində böhrana girib. İndiki kritik situasiyada, Azərbaycanın taleyi həll olunacaq bir ildə - söhbət 2015-ci il parlament seçkilərindən gedir - Müsavat Partiyasını böhrana soxmamaq lazım idi. Bununla bağlı fikrimi demişəm və bunu söyləməmişdən bir neçə gün əvvəl də İsa Qəmbərin özü ilə müzakirə zəminində şəxsinə çatdırmışam. Bilirəm ki, Azərbaycanın öndə gələn demokratlarından biri olan İsa bəy bu cür müzakirə, mübahisə və fikirlərdən incimir. Açıqlamamda isə hücumdan söz gedə bilməz, tam əksinə, mən orada İsa Qəmbərin şəxsiyyətini və əhəmiyyətini böyütmüşəm. Müsavat Partiyası və onun çevrəsindəki insanlar bu cür fərqli fikirlərə alışqandırlar. Çünki bu partiyada gerçək demokratiya mühiti var. Sadəcə, Əli Kərimlinin çevrəsindəkilər bunu sensasiya, hücum kimi qiymətləndirirlər. Çünki AXCP-dəki mühit despotik bir mühitdir. Əli Kərimlinin çevrəsindən bir adam göstərin ki, onun dedikləri ilə fərqlənən bir fikir söyləsinlər. Bu, mümkün deyil. Həmin şəxsi dərhal vətən xaini elan edib qovarlar... Mənə qarşı kampaniyanın bu fraqmenti isə Əli Kərimlinin bir növ ifşası deməkdir. Onun demokrat olmadığının üzə çıxması deməkdir. Eyni zamanda bunlar həm də məqsəd güdürlər ki, Müsavat Partiyasının fəallarını və rəhbərliyini mənə qarşı qoysunlar. Bu da boşuna bir şeydir. Mənim heç bir partiya, o cümlədən də Müsavat Partiyasına, heç bir liderə, o cümlədən də Müsavat Partiyasının rəhbərliyində olan şəxslərə, onların dəstəyinə ehtiyacım yoxdur. Əli Kərimli kimdir ki, mən onunla növbəti toqquşmamda dəstəyə möhtac olum. Tam əksinə, mən qruplara, çevrələrə, partiyalara, liderlərə dəstək verirəm. Ona görə də boşuna narahat olmasınlar. Mən heç kimdən dəstək gözləmədiyim üçün bu cür murdar kampaniyadan-guya Müsavatı mənə qarşı qoymaqdan da heç narahat deyiləm. İsa Qəmbərə gəldikdə isə başqanın harada olmasından asılı olmayaraq, onun yanındayam, fəaliyyəti varsa, dəstəyindəyəm. Hesab edirəm ki, Azərbaycanın yaxın və uzaq gələcəyində İsa Qəmbər faktorunun əhəmiyyəti, rolu hələ çox böyük olacaq. "Yeni Müsavat" qəzetini də həmin rol və əhəmiyyətdən ayırmıram".

❑ **Etibar SEYİDAĞA, musavat.com**

# "People in Need" "Yeni Müsavat"a cavab verdi, mübahisə qapandı...

## Ekspertlər mübahisənin strategiyası baxımından bunu düzgün variant hesab edir

**Xəbər verdiyimiz kimi, "People in Need" (PIN) təşkilatı onun barəsində Azərbaycan mediasında və bir sıra QHT rəhbərləri tərəfindən səsləndirilən ittihamlara cavab olaraq aşağıdakı mətni qəzetimizə yollayıb. "Yeni Müsavat" söz azadlığı və cavab haqqı prinsiplərinə riayət edərək, həmin cavabı dərc edir.**

Onu da vurğulayır ki, PİN haqqında "ermənipərəst" iddiası Avropa Birliyinin Şərq Tərəfdaşlığı Proqramının Vətəndaş Cəmiyyəti Forumunun həmsədri, iqtisadçı ekspert Vüqar Bayramov tərəfindən səsləndirilib, qəzetimiz ilk zamanlar sadəcə bu mövqenin dərcini həyata keçirib. Daha sonra isə mövzuya dair qızğın polemikalar gedərkən əməkdaşlarımız PİN təşkilatının ermənipərəst olmasını sübut edən faktları taparaq, yayınlayıblar. Biz yenə də öz mövqeyimizdə qalırıq. Lakin qəzetlər özlərinin mövqelərini deyil, ən müxtəlif mövqeləri dərc etmək üçündür. Beləliklə, PİN təşkilatının özünə olan ittihamlara cavabı:

"Kimlərisə ermənipərəst olmaqda ittiham etməklə tənqidləri susdurmaq və ölkənin faciəvi insan hüquqları durumundan diqqəti yayındırmaq Azərbaycan propaqandası tərəfindən istifadə edilən köhnə metodlardan biridir. Bu, Azərbaycanla bağlı çalışan digər beynəlxalq təşkilatların üzləşdiklərindən bir misaldır" - deyə, PİN təşkilatının direktoru Simon Panek bildirib: "Human Rights Watch" və "Amnesty International" kimi müstəqil və nüfuzlu beynəlxalq təşkilatlar davamlı olaraq önyarğılı, qərəzli və "ermənipərəst mövqeli" olmaqda ittiham ediliblər".

**Cavabda qeyd olunub ki, PİN təşkilatı Azərbaycan vətəndaş cəmiyyətini 2013-cü ildən dəstəkləyir. Azərbaycan hakimiyyəti QHT-lərinin fəaliyyətinə qarşı sərt qanunlar qəbul edərək və son illərdə hüquq müdafiəçilərini həbs edərək vətəndaş cəmiyyətinə qarşı misli görünməmiş basqılara başlayıb. "Belə sıx və hədəfli basqılar Şərq Tərəfdaşlığı ölkələrinin heç birində bənzəri olmayıb. Hətta Belarusda belə" - deyə, Simon Panek əlavə edir:** "PIN 1992-ci ildə Praqada qeyri-hökumət təşkilatı kimi və humanizm, azadlıq, bərabərlik və həmrəylik ideyaları üzərində fəaliyyətə başlayıb. Təşkilat beynəlxalq aləm tərəfindən tanınmış bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və beynəlxalq normalara uyğun olaraq fəaliyyət göstərir. Təbii fəlakətlər, müharibə və münaqişələrə məruz qalmış bölgələrdə çalışsa da, təşkilat heç zaman heç bir dövlətin mövqeyini təmsil etməyib. Avropa, Asiya, Afrika və Latın Amerikasında gördüyümüz işlər zamanı dəstək verdiyimiz insanların qorunması və onların hüquqlarının müdafiəsi PİN təşkilatının əsas prinsiplərindən biri olubdur".

**Cavabda həmçinin qeyd olunub ki, təsis edildiyi gündən indiyə qədər keçən iki onillik zamanı PIN təxminən 60 ölkədə humanitar yardım və inkişaf və ya insan hüquqları və demokratiyaya yardım sahəsində çalışıb:** "Təşkilatın təsisçilərindən bu gün PIN-in idarə edilməsində heç bir rolu olmayan fərdlərin şəxsi baxışları təşkilatın mövqeyini, strategiyasını və ya siyasətini təmsil etmir. Düşünürəm ki, ermənipərəst kimi ittiham edilməyimiz absurddur, çünki hakimiyyəti qanunun aliliyinə, insan hüquqlarına hörmətə çağıran, hökumətdən hesabatlı və daha az korrupsiyalaşmış olmağı istəyənləri dəstəkləməyimiz ölkənin gələcəyinə qoyulmuş ən yaxşı sərmayədir".

Media mütəxəssisləri isə hesab edirlər ki, sözügedən mübahisə və söz atışması prosesində "People in Need" təşkilatının söz haqqı adekvat idi. "Yeni Müsavat"da yer alan, müxtəlif insanların dilindən səslənən, araşdırmalarla üzə çıxarılan "ermənipərəst" ittihamına elə təşkilatdan cavab verilməliydi. Ekspertlər həmçinin hesab edirlər ki, qəzetin də qarşı tərəfin söz haqqına hörmət edərək, sözügedən bəyanatı ixtisarsız dərc etməsi jurnalistika normalarına riayət edilməsindən xəbər verir. "Bu məsələdə iki tərəf var - qəzet və təşkilat" deyən media mütəxəssislərinin fikrincə, təşkilat barədə qəzetdə yer alanlara elə təşkilatın özü tərəfindən, birbaşa cavab verilməsi diskussiyanın səviyyəsi baxımından standartlara uyğundur.

Bu məsələ ortaya çıxanda PİN-in tərəfdarları da söyüşlə, qaragüruhcasına deyil, normal şəkildə fikirlər bildirsəydilər, təbii, onlar da dərc oluna bilərdi.

❑ **Sevinc TELMANQIZI**



# Halal çörəyimizi haram etməyin...

**Nazim SABİROĞLU**

**Azərbaycanda ictimai-siyasi mühitin bunca çirklənməsi hansısa çex təşkilatının Batumidə təşkil etdiyi qalmaqaldan başlamayıb. Heç o təşkilatdakıların vecinə də deyil ki, indi bir tərəf israrla onları müdafiə edir, bir qəzet isə sağdan-soldan hücumları dəf etmək üçün qəzetin səhifələrinə oxucudan almağa məcbur olur. Vəziyyətin bu hala gəlməsinin kökləri daha dərindir və bunları “Yeni Müsavat”ın baş redaktorunu və kollektivini hədəfə alan “Azadlıq”dakı həmkarlarımız da hamıdan yaxşı bilir.**

Biz bir-birimizdən nə istəyirik? Niyə Azərbaycanın ən halal çörəyini qazanan bir kollektivə bu qədər çamur atılır, niyə illəri həm jurnalistikanın, həm Azərbaycanın uğuru üçün “uf” demədən qurban verən bir baş redaktora bu qədər təhqirlər yağdırılır? “Nə istəyirsiz?” deyə adam içərisində boğulur, vallah-billah bu cür insafsızlıq olmaz axı...

Elə “Azadlıq”ın özü, orada qocalmış Rövşən qardaşımız, bina qonşularım Elşən və Şücəddin məgər bu yazıları redaktə edəndə heç içərləri silkələnmirmi? İnanmıram... O kollektivlə 2003-cü ildə “Azadlıq”ın Xəqani 33-dəki binasında işıq-işığa işləmişik, çiyin-çiyinə biz-birimizə arxa olmuşuq, çörək kəsmişik. “Azadlıq” binasından çıxarılanda o kollektiv də ərklə “Yeni Müsavat”ın qapısını döyüb, orda da bir-birimizlə mehriban dolanmışıq. Bunu biriləri yenə bizə qarşı şantaja çevirməsinlər, hərdən bu cür hadisələri xatırlamağın çox faydası var. Həyatda düz-çörəyi tapdalamaqdan ağır nə ola bilər ki?

Rauf Arifoğlunun qəzetinin kollektivinə etdiyi yaxşılığa görə etdiyi şükranlığını kitabından oxumamışam, şəxsən qulaq şahidiyəm. Tanıyanlar bilir: adam pisliyi tez, yaxşılığı isə heç unutmur. Amma nə yazıq ki, bu yaxşılığın, bir çox siyasət adamları üçün etdiklərinin hər dəfə onun burnundan gətirilməsinin də şahidiyəm... Allah insaf versin, bir az adamın həyatına baxın, həbsxanalarda keçirdiyi günləri sayın, ailəsinin çəkdikləri iztirabı heç olmasa gözardı etməyin...

2008-ci ildə “Azadlıq” qəzetinin də eyni taleni yaşadığını bilirəm, baş redaktoru əvvəl həbsdə, indi mühacirətdədir. Fəqət bu qəzet illərdir bir jurnalist-redaktorun deyil, bir siyasətçinin nəzarətindədir. Bunu təftiş etmək bizlik deyil, təsisçi rəsmi sənədlərlə kollektivdir...

Bu qəzeti Rauf Arifoğlu qurub, rəsmi sənədlərlə də bu onun şəxsi mülkiyyətidir. Zaman elə gəldi ki, içi hamımız qarışıq siyasətlə jurnalistikanı birləşdirdik, hətta siyasətçilər qaçıb gizlənəndə qəzet tək və köməksiz qaldıq. Amma bunun bir sonu da olmalıydı... Rauf Arifoğlu qəzetini siyasi fəaliyyətinə qurban vermədi, əksinə və nə yaxşı ki, onu siyasətdən üstün tutdu, illərdi müxalifətin təmənnasız inhisarına verdiyi “Yeni Müsavat”ı bizi söyən, nifrət edən iqtidarın da üzünə açdı. “Yeni Müsavat” bir düşərgənin inqilabi qəzet imicindən çıxıb, hamının qəzeti olmağı hədəflədi. Bu, əlbəttə ki, çoxlarının xoşuna gəlməyəcəkdi, hətta baş redaktorun ən yaxınındakı dostlarının belə...

“Azadlıq” da doğru bildiyi yolla getdi. Əslində elə illərdi yalnız bir adamın hikkəsi, bir adamın siyasi baxışları ilə dərc edilən qəzetin başqa yolu vardımı? Yolları açıq olsun. Bildikləri yolla getsinlər, istədikləri adamlara tribuna versinlər, istəmədiklərinə yox...Kim nə deyə bilər ki?

Bəs onda sizlər nə istəyirsiz “Yeni Müsavat”dan?

Biz əyrini düz yazırıq? Siz düz bildiyinizi düz yazın! Biz YAP-a tribuna veririk? Siz qəzetinizdə verməyin! Biz AXCP-dən istefalardan yazırıq? Siz də Müsavatdakı qalmaqaldan yazın! Siz dövlətlə hakimiyyəti eyni tərəziyə qoyursunuz, biz elə tərəzini qəbul etmirik! Axı kimə nə? Oxumasalar bizi oxumayacaqlar, qonorar da almayacağıq. Sizi daha çox oxusunlar, həmkarlarımız daha çox qonorar alsın... Biz sevinərik vallah...

Amma hər şey əksinədir nədənsə..."Yeni Müsavat" filan məsələni yazmadı, aha...Bu nə təftişçilik, bu necə yanaşmadır axı? Axı “Yeni Müsavat” heç vaxt AXCP funksionerlərinə “belə oturun” məsləhəti verməyib. Buna bizim hüququmuz çatmır. Bəs sizə kim o hüququ verib ki, “Yeni Müsavat”ı təftiş edib təhqir edirsiniz? Rauf Arifoğlundan xoşunuz gəlmir, gəlməsin. Qəzeti bəyənmirsiniz, öz seçiminizdir. Ay qardaşlar, əl çəkin də bu qeybətlərdən. Daha biz bəzi siyasətçilərin əvəzindən hakimiyyəti əzən köşələr yazmayacağıq, sizin əvəzinizdən mitinqlərdə təpiklənməyəcəyik, sizin əvəzinizdən heç həbsxanalarda yatmaq fikrində də deyilik. Bizim işimiz yazmaqdır. Əlinizdə qələm var, yazın çap edin. Meydan var, gedin mitinq edin. Bizim işimiz yenə yazmaqdır, necə yazmaq da öz işimizdir.

“Yeni Müsavat” axı hakimiyyət uğrunda mübarizə aparmır. Bizim elə bir iddiamız yoxdur. “Azadlıq” qəzetinin rəhbərinin isə belə bir iddiası var. Qollarına qüvvət, zehniyyətləri açıq olsun. Amma bizdən əl çəkin, o kəsdiyimiz, kəsdiyiniz duz-çörək xətrinə öz işinizlə məşğul olun. Halal çörəyimizi haram etməyin...

**Müsavat Partiyasının Beynəlxalq İnsan Haqları Günü münasibəti ilə “Siyasi məhbuslara azadlıq!” şüarı ilə 14 dekabra təyin etdiyi mitinqə hazırlığı davam etdirir. Mitinqlə bağlı noyabrın 26-da Bakı Şəhər İcra Hakimiyyətinə edilən müraciətə isə hələ cavab verilməyib. Bu barədə Müsavat Partiyası Mitinq Komitəsinin rəhbəri Gülağa Aslanlı “Yeni Müsavat”a açıqlamasında məlumat verib. Onun sözlərinə görə, bütün təşkilati-texniki işlər istiqamətində lazımi işlər həyata keçirilməkdədir: “Qanunauyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinin mitinqin keçirilməsinə üç gün qalmasına qədər cavab vermək imkanları var.**

# Narazı müsavatçılar da Müsavatın mitinqinə qatılacaqlar

## Çıxış etmək istəyənlərə şərait yaradılacaqmı...

Ona görə də biz qarşıdakı günlərdə cavab veriləcəyini gözləyirik. Mitinqə hazırlığı davam etdiririk. 12 nəfərdən ibarət mitinq komitəsi yaradılıb. Mitinq komitəsinin üzvləri arasında iş bölgüsü aparılıb. Növbəti yığıncağımız dekabrın 5-də saat 2-də olacaq. Görülən işlər haqqında yığıncaqda məlumat veriləcək”.

Qeyd edək ki, mitinq komitəsinin üzvləri sırasında Müsavatdakı narazılardan da tanınmış simalar var. Başqanlığa keçmiş namizəd Tural Abbaslı və başqanlığa sabiq namizəd Qubad İbadoğlunun tərəfdarı Ellada Məmmədli də var. Narazılardan Vurğun Əyyub isə dünən bəyan edib ki, Müsavatın təşkil etdiyi 14 dekabr mitinqinə qatılacaq. Hafta.az-a açıqlamasında V.Əyyub deyib ki, imkanı olacaqsa, mitinqdə iştirak edəcək.

**Mitinqdə çıxış edib-etməyəcəyi ilə bağlı sualı isə V.Əyyub bu cür cavablandırıb:** “İndiyə qədər mitinqlərdə tribunaya çıxmamışam. Növbəti mitinqdə də bu barədə düşünmürəm”.

**G.Aslanlı isə “Narazılardan kimlərsə mitinqdə çıxış etmək istəsələr şərait yaradılacaqmı” sualına belə cavab verib:** “İnsan haqları heç bir partiyanın daxili işi olmadığı üçün siyasi məhbuslar məsələsi də Müsavatın daxili işi deyil. Mitinqdə kimlərin iştirak eləməsi hər kəsin öz işidir. Biz təkcə müsavatçıların yox, digər partiyaların da üzvlərinin, sadə insanların siyasi məhbuslarla bağlı keçirilən mitinqdə iştirakına çox sevinərik. Onların mitinqdə iştirakına bizim tərəfimizdən heç bir maneə yaradıla bilməz. Müsavat Partiyasının qurultayından narazı qalan şəxslərin bu mitinqdə iştirak eləməsində və çıxış etməsində qeyri-adi nə isə vurğulamaq istəmirəm. Çünki partiyanın üzvü seçkinin nəticələrindən narazı qala bilər, amma insan haqları uğrunda, siyasi məhbusların azadlığı üçün keçirilən mitinqdə onların iştirakına tam təbii baxıram. Mitinq komitəsinə hələ ki konkret kimlərinsə mitinqdə çıxış edib-etməyəcəyi istəyi haqqında məlumatlar



Gülağa Aslanlı

daxil olmayıb. Əgər olacaqsa, mitinq komitəsi müzakirə edib qərar verə bilər”.

**Qeyd edək ki, Müsavat Partiyası 14 dekabr tarixində "Məhsul" stadionunda mitinq keçirməyi planlaşdırır.**

❑ **E.SEYİDAĞA**



# Arif Hacılı müsavatçılara müraciət edib

**Müsavat Partiyasının başqanı Arif Hacılı təşkilatda bir-biri ilə konflikt aparan üzvlərə müraciət edib. Müraciət facebookdakı “Müsavat üzvləri” adlı qapalı qrupda edilib. Həmin müraciəti qapalı qrupa girişi olan tanınmış müsavatçılardan biri müsavat.com-a ötürüb. Mövzunun əhəmiyyətini nəzərə alaraq, onu dərc edirik. Arif Hacılı yazır: “Bəlkə neqativdən bir az uzaqlaşaq? Dedi-qodunu durduraq? Bəlkə dostların dərdinə şərik olaq? Uğurlarına sevinək? Problemlərinin həllinə çalışaq? Bəlkə rejimin onsuz da zəhərə döndərdiyi həyatımızı bir az da zəhərləməyək? Bu, nifaq, qovğa qrupu deyil. Bu, silahdaşlıq, həmrəylik, bir-birimizə dəstək, xəbərləşmə qrupudur. İç savaşları durdurmalıyıq ki, dış savaşları davam edə bilək”.**

Müsavat üzvlərinə yönələn bu müraciət 2 dekabrda, səhər saatlarında yayınlanıb. Məhz həmin vaxtdan az sonra Arif Hacılının təşəbbüsü ilə partiya qərargahında narazıların lideri Qubad İbadoğlu ilə görüş keçirilib.

❑ **E.SEYİDAĞA**

**Sovet dövründə kiminləsə ortaqlaşaraq yazdığı bir ssenariyə görə adı hələ də “tanınmış ziyalı” kimi qeyd olunan Eldəniz Quliyev, bilirsiniz, satirik qələmə malikdir. O gün onun, heç cür müxalifətin ruporuna çevrilə bilməyən “Azadlıq” qəzetinin təbirincə desək, “hakimiyyətin ruporuna çevrilmiş ”Yeni Müsavat" qəzeti"nə dair bir lətifəsi dərc olunub. Milli Şuranın tanınmış ziyalısının əvvəlcə facebook səhifəsində, sonra “Azadlıq”da paylaşdığı həmin satirik qeyd, türkün sözü, espiri aşağıdakı kimidir:**

**Samir SARI**



# Cinli ssenarilər

“AXCP-nin gənc fəallarından biri yolla gedirmiş. Birdən ayağı boş bir limonad şüşəsinə dəyir, butulka sınır. Elə o andaca... şüşədən bir Cin çıxır. Üzünü oğlana tutub deyir:

- Ey mənim sahibim, səndən buyruq, məndən qulluq!.. Nə arzun-istəyin varsa, de, bir göz qırpımında yerinə yetirim.

Oğlan Cini sınamaq məqsədilə:

- Get, Hind okeanının üstündən qəşəng bir körpü çək! - deyir.

Cin dərin fikrə gedir, handan-hana günahkarcasına mızıldanır:

- Ya başımın ağası, bu çoox qəliz bir məsələdi axı... Bəlkə başqa bir şey əmr edəsən?..

Oğlan deyir:

- Onda elə et ki, mən “Yeni Müsavat”ın felindən, məkrindən agah olum!..

Cin bunu eşidən kimi dik atılır:

- Ya sahibim, -deyir, - Bəyaq buyurduğun körpünün eni nə qədər olsun dedin?.."

Ha-ha-ha! Çox gülməlidir, deyilmi? Əmin edə bilərəm ki, Cem Yılmaz və Mixail Zadornov yumorunu, Yılmaz Özdil və Şenderoviç satirasını üstələyən bu komik parçaya görə nə qədər insan qəşş eləyib. Kim bilir, onlardan neçəsi xəstəxanalıq olub, neçəsi ambulator müalicəyə başlayıb. Çünki söhbət çox komikdir. O boyda Cin “Yeni Müsavat”ın fel və məkrindən baş aça bilmir, gedib Hind okeanından körpü çəkməyə çalışır. Oyy, camaat qırıldı gülməkdən. Yardım edin! Ambulans! 103-ə zəng vurun! İnsanlar ölür burda gülməkdən!

Əslində məşhur ssenaristin öz komik əsərində (mən əsər deyirəm, nə qısqanclıqdır) Cin obrazından istifadə etməsi təsadüfi deyil. Adam 60 illik həyatı boyunca cəmi bir dənə bilinən Cin haqqındakı sonuncu əsəri plagiatdır. Bu, ən azı 20 ilin lətifəsidir və improvizə edilərək yüz variantda salınıb. Ruslar, ingilislər, türklər, ermənilər, almanlar, kəsəsi, tanıdığımız və tanımadığımız bütün millətlərdə bu lətifənin milli variantı var. Çox da gülməli lətifədir. Avropada da bu lətifəyə görə ambulans haraylayanlar olur, eşitdiyimə görə.

Elə bugünlərdə bir nəfər facebook istifadəçisi həmin lətifəyə futbolçu Mahir Şükürovun adını pərçim eləmişdi. Guya ki, Mahir cinə ürcah olur, o da ondan xahiş edir ki, Cin onu “Barselona”ya transfer eləsin və o, orada kapitan olsun, Cin də deyir, yox, yaxşısı budur, Hind okeanının üstündən körpü çəkim. Göründüyü kimi, çox gülməlidir.

Hərçənd Mahir Şükürov nədən “Barselona”da oynaya bilməsin ki. Yeri gəlsə, o, Pikedən də yaxşı oynayır, hələ Şakiraya ondan da yaxşı baxar.

Nəysə, söz bunda deyil, ondadır ki, yaradıcı ziyalımız bu lətifəni facebookda görüb və dərhal ssenari yazıb, onun da adı “Cin mikrorayonda”dır. Yəni Cin obrazı Eldəniz müəllimə yaxındır, müəllim onların patologiyasını, həyat və yaradıcılıqlarını bilir.

İndi “Cin mikrorayonda” filminin ssenarisinin plagiat olduğunu deyərək haqsızlığa yol verə bilmərəm, amma tam əminliklə deyə bilərəm ki, müəllimin onun iti, analitik və satirik beyninə yaxşı bir ideya gəlib: söhbəti “Yeni Müsavat”ın üstünə fırlatmaq olar, qoy limonad şüşəsindən çıxan Cin qəzetin fel və məkrindən baş açmasın, gedib okean üstündən körpü çəksin...

Xalqımız hər zaman bu cür istedadlar yetişdirir, sadəcə biz onların qədrini bilmirik. Bax, sabah Eldəniz müəllim bu ölkədə gördüyü diqqətsizlikdən, təqib-təzyiqlərdən bezərək, baş götürüb başqa ölkəyə, tutaq ki, Türkiyəyə getsə, gedib orada “Hürriyet”də, “Milliyet”də öz öldürücü satirası ilə qəlbləri fəth etsə, anadolular demişkən, könüllərdə taxt qursa, deyəcəyik, daha bir parlaq istedadın qədrini bilmədik.

Sağlığında qiymət verin insanlara. Heç olmasa diqqət verin. Bir də imkan verin gözəl ssenarilər yazsın. Kim bilir, bu saat onun sandığında neçə-neçə Hollivuda layiq ssenarilər yatır - hamısı da cinlər haqqında.

# Vaşinqtonla Bakının münasibətləri pik həddə



Cen Psaki




Əli Hüseynli

**Son vaxtlar Azərbaycan - ABŞ diplomatik əlaqələrinin mövcud olduğu 22 il ərzindəki ikitərəfli münasibətlərdə ən gərgin mərhələ yaşanmaqdadır. Vaşinqtondan rəsmi Bakıya ünvanlanmış sərt tənqidlərə Azərbaycan hakimiyyətinin dərhal və daha sərt dildə cavab verməsi iki dövlət arasında "soyuq müharibə"nin hökm sürdüyü qənaətini yaradır.**

# ABŞ-Azərbaycan savaşı - kritik dönəm başladı

## XİN və PA-dan sonra Milli Məclisdən Amerika əleyhinə sərt bəyanat gəldi; hakimiyyəti tənqid edən Birləşmiş Ştatlar terrorizmi dəstəkləyən ölkəyə çevrilməkdə ittiham olundu; yaşanan gərginlik yeni səfir təyinatına imkan verəcəkmi?

ABŞ Dövlət Departamentinin sözçüsü Cen Psakinin dekabrın 1-də keçirdiyi ənənəvi brifinqində "Biz Azərbaycan hökumətinin insan haqlarına dair beynəlxalq öhdəlik və vəzifələrinə əməl etməməsindən getdikcə daha dərin narahatlıq duyuruq. Biz Azərbaycanı öz vətəndaşlarının universal insan haqlarına hörmət etməyə və onlara öz baxışlarını ifadə etmək imkanı yaratmağa çağırırıq" bəyanatını səsləndirməsi rəsmi Bakını anti-Amerika bəyanatlarında tonu artırmağa sövq edib. Görünən budur ki, adətən daha ehtiyatlı və təmkinli qaydada ABŞ diplomatlarının fikirlərini təkzib etməyə çalışan Azərbaycan rəsmiləri artıq "hücum diplomatiyası"na start verib. Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Hikmət Hacıyevin xanım Psakinin bəyanatına cavabında ABŞ-ı Azərbaycanın daxili işlərinə qarışmaqda ittiham etməsi də bunun əyani sübutudur. XİN sözçüsünün dediyinə görə, ABŞ Dövlət Departamentinin nümayəndəsinin Azərbaycanda insan hüquqlarının vəziyyəti barəsində səsləndirdiyi fikirlər obyektiv reallığı əks etdirmir və insan hüquqlarını məqsədyönlü şəkildə siyasiləşdirmək, təzyiq alətinə çevirmək cəhdlərinin tərkib hissəsidir.

**Bunun ardınca Azərbaycan prezidentinin mətbuat katibi Azər Qasımov Birləşmiş Ştatların özündə söz azadlığı sahəsində də böyük problemlərin olduğunu bəyan etdi. A.Qasımov dedi ki, C.Psaki tez-tez dünyanın ayrı-ayrı bölgələrində baş verən proseslərlə bağlı qeyri-peşəkar, doğru olmayan faktlar, hətta coğrafi səhvlərlə müşayiət olunan çıxışlar edir. Mətbuat katibi də olduqca sərt şəkildə C.Psakiyə öz ölkəsindəki problemlərə diqqət yetirməyə çağırıb:** "Guya Azərbaycanda insan haqları sahəsində beynəlxalq öhdəliklərə riayət olunmaması ilə bağlı qərəzli, riyakar, heç bir reallığa söykənməyən fikirlər söyləməkdənsə, ona məslət görərdim ki, öz ölkəsində insan haqlarının kobudcasına pozulması, fundamental hüquq və azadlıqlara məhəl qoyulmaması faktlarına diqqət yetirsin".

**XİN və PA-dan gələn sərt bəyanatların ardınca Azərbaycan hakimiyyətinin mühüm fiqurlarından biri, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli daha kəskin notlarla Cen Psakinin son bəyanatına cavab verib. Ə.Hüseynli APA-ya açıqlamasında deyib ki, C.Psakinin son bəyanatı heç də təəccüb doğurmur:** "Ümumiyyətlə, Dövlət Departamentinin son dövrlər Azərbaycanın işğal olunmuş ərazisində ermənilər tərəfindən həyata keçirilən provokasiyalarla bağlı tutduqları mövqe onların əsl simasını üzə çıxarır. Azərbaycanlı əsirlər Dilqəm Əsgərov və Şahbaz Quliyevə verilən işgəncələr, qondarma məhkəmə prosesi, Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan ərazisində hərbi təlimlər və provokasiyalar etməsinə münasibət bildirmək əvəzinə, Azərbaycan hökumətinə qarşı əsassız ittihamlar söyləyir. Əslində ABŞ Dövlət Departamenti Azərbaycan hökumətindən yox, biz ABŞ hökumətinin insan haqlarına dair beynəlxalq öhdəlik və vəzifələrinə əməl etməməsindən narahatıq. ABŞ öz xalqına qarşı polis zorakılığına son qoymalı, irqi və milli dözümsüzlük hallarına qarşı tədbirlər görməlidir. Beynəlxalq aləmdə isə ABŞ son dövrlər terrorizmə qarşı mübarizə aparan ölkədən terrorizmi dəstəkləyən ölkəyə çevrilməkdədir". **Komitə sədri həmçinin bildirib ki, bugünlərdə səfirliyin müraciəti əsasında MM-in Hüquq komitəsinin sədri kimi ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Derek Hoqanla görüşüb və görüşdə o cümlədən QHT-lərlə bağlı qanuna əlavə edilmiş son dəyişikliklər müzakirə edilib:** "Bu dəyişikliklərin milli QHT-lərin donorlar tərəfindən maliyyələşdirilməsinin şəffaflığı baxımından əhəmiyyətli olduğu vurğulanıb. Görüş zamanı həmçinin səfirlik nümayəndələrinə Azərbaycanla bağlı məsələlərdə amerikalılara yeni, daha yaxşı eynəkdən istifadə etməyi məsləhət bildim".

Diqqətçəkən odur ki, Ə.Hüseynlinin sərt açıqlaması məhz Derek Hoqanla görüşdən sonraya təsadüf edir. Bu açıqlama sözügedən görüşün hansı ovqatda keçdiyi barədə qənaətə gəlmək üçün də bəs edir. Əlavə edək ki, bundan əvvəl Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının Derek Hoqanı qəbul etdiyi barədə rəsmi məlumat yayılsa da, detallar açıqlanmadı.

Milli Məclisin son iclasında Avropa Parlamentinin prezidenti Martin Şultsun Azərbaycanda insan haqlarının vəziyyətini tənqid etməsinə cavab olaraq sərt bəyanatlar səsləndirilmişdi. Spiker Oqtay Əsədov artıq bu kimi tənqidlərin birmənalı olaraq cavabının verilməsinə çağırış edərək "Biz necə münasibət görürük, elə də münasibət bəsləməliyik" demişdi. Görünən budur ki, rəsmi Bakı prinsiplərinə sadiqdir və xarici təzyiqi heç cür qəbul etməmək, "atəş nöqtəsini" dərhal susdurmaqda israrlıdır.

Qeyd edək ki, Azərbaycan terrorla mübarizədə ABŞ-la 2000-ci illərin əvvəllərindən əməkdaşlıq edir. Adətən iki ölkənin münasibətlərindən danışarkən antiterror koalisiyasında birgə iştirak önə çəkilirdi. Hazırda da Azərbaycanın Əfqanıstandakı antiterror koalisiyasında böliyü var. Ancaq artıq Azərbaycandan Amerikaya ünvanlı bəyanatlarda ABŞ-ın terrorizmə qarşı mübarizə aparan ölkədən terrorizmi dəstəkləyən ölkəyə çevrildiyi açıq şəkildə deyilirsə, deməli, iki ölkənin bu sahədə əməkdaşlığının perspektivləri də sual doğurur. Görünən odur ki, artıq ABŞ-Azərbaycan münasibətləri "soyuq müharibə" mərhələsinə adlayıb.

**"Əslində iki ölkə arasında nə baş verir" sualının cavabında politoloq Zəfər Quliyev qeyd edir ki, Azərbaycanla ABŞ arasındakı bu gərginliyin əsas səbəbi heç də insan haqlarının durumu deyil:** "Əsas səbəb Vaşinqton üçün Azərbaycanın geosiyasi baxımdan mövqeyinin aydın olmamasıdır. Vaşinqton çox narahatdır ki, Azərbaycan Qərbə doğru inteqrasiya xəttindən imtina edir və Moskvanın təzyiqi nəticəsində Rusiya ilə yaxınlaşır. Yəni insan haqları, korrupsiya kimi arqumentlər çox vaxt Qərbin əlində Azərbaycana qarşı təzyiq üçün sadəcə vasitə rolunu oynayır. Azərbaycan əvvəlki kimi bütün sahələrdə Qərbin istədiyi xətti tutsaydı, mən əminəm ki, bu təzyiqlər dərhal gündəmdən çıxa bilərdi".

Deməli, bir müddət öncə Milli Məclisin komitə sədri Səməd Seyidovun ABŞ-a səfəri iki ölkə arasında "buzları" əritmək üçün yetərli olmayıb və hakimiyyət Avropanın müxtəlif qurumlarının ardınca ABŞ-dan da təpkilər görməkdədir.

Yeri gəlmişkən, dekabrın 4-də ABŞ Senatının Xarici əlaqələr üzrə komitəsi Robert Cekutanın Azərbaycanda yeni səfir postuna namizədliyini müzakirə edəcək. Münasibətlərdəki gərginlik ocağının məhz belə bir ərəfədə alovlanması da diqqətçəkəndir. Bu mənada bəzi mənbələr hesab edir ki, gərginliyin pik həddə çatması ABŞ-ın Bakıya səfir göndərməsini əngəlləməyə də xidmət edə bilər. ABŞ-ın Azərbaycandakı səfirliyi avqustun 1-dən etibarən səfirsiz qalıb. Ötən illərin təcrübəsində də səfir təyinatlarının aylardan sonra reallaşdığını görmüşük. Bu dəfə prezident Barak Obamanın namizədinin xüsusilə indiki münasibətlər sistemi fonunda asanlıqla təsdiqlənəcəyi də az inandırıcı görünür. Üstəlik, erməni lobbisi də bütün gücü ilə ABŞ-Azərbaycan münasibətlərini pozmaq istiqamətində çalışır.

Belə bir mərhələdə Azərbaycanla ABŞ arasındakı diplomatik savaşın nə ilə bitəcəyini isə zaman göstərəcək.

❑ **Elşad PAŞASOY**

# Özbək dostumuz bizi necə təəccübləndirdi?



**Hüseynbala SƏLİMOV**

**Özbəkistanın adını eşidəndə kimsə deyə bilər ki, yazırsınızsa özümüzdən yazın, bu yaxınlarda Azərbaycanda da seçkilər olmalıdır. Nə demək olar? Öz seçkilərimiz haqqında yazmışıq. Həm də Özbəkistanla bağlı deyilənləri böyük uğurla Azərbaycana da aid etmək olar. Üstəlik, yazı Özbəkistan haqqında da deyil, oradan bir ştrix götürmüşük. O da giriş üçün...**

Özbəkistan nə ilə diqqətimizi çəkdi? Bir xəbərdən bildik ki, ATƏT-in seçki missiyası bu ölkədəki parlament və yerli seçkiləri izləmək üçün ora gələcək və təbii ki, seçkilərin gedişini müzakirə etməyə çalışacaq...

Bunu oxuyan kimi bir detal yadımıza düşdü. 2000-ci il idi. Varşavadakı Helsinki cəmiyyətinin dəvəti ilə Polşaya getmişdik. İlk görüş toplantısında dedilər ki, bir-iki kəlmə ilə hamı öz ölkəsindəki vəziyyəti xarakterizə etməyə çalışsın...

Özbəkistandan gəlmiş həmkarımız oradakı seçkilərlə bağlı bir-iki rəsmi cümlə dedi. Əvvəlcə, fikirləşdik ki, özbək dostumuz bizi ələ salır. O, özü də bizim pərtliyimizi sezdi və dedi ki, cənablar, çaşmayın, bu cümlələr ATƏT-in seçki missiyasının Özbəkistandakı seçkilərə verdiyi siyasi qiymətdən götürülüb.

O vaxt başa düşdük ki, hər dəfə seçkidən sonra "irəliyə doğru daha bir addım" ifadəsini eşidəndə dilxor olmağa dəyməz...

Yox, burada Avropanın demokratik strukturlarının ardınca deyinmək fikrimiz yoxdur. Ən azı ona görə ki, buna mənəvi haqqımız çatmır. Avropa strukturları azərbaycanlı siyasi məhbuslara böyük dəstək verdi.

Elə bu günlərdə də bir neçə Avropa təmsilçisi Azərbaycandakı vəziyyətlə bağlı çox dürüst və obyektiv fikirlər söylədilər və bununla da yerli hakimiyyətin qəzəbinə tuş gəldilər...

Bəs problem nədədir? İnsanlar Avropanı aciz görməyə alışmayıb. Hamının nəzərində ABŞ da, Qərbi Avropa da soyuq müharibənin qəlibləri olub. Hamı bu ölkələri həmişə qalib və hər şeyə qadir timsalında görüb...

Ona görə də adam inana bilmir ki, ABŞ və yaxud da Qərbi Avropa ölkələri hansısa kiçik avtoritar ölkə ilə bacarmasınlar. Amma dərindən fikirləşəndə də görürsən ki, bu, da siyasi yanaşma deyil. Avropa nə etsin? Dəyənək götürüb azərbaycanlı məmurları döysünlərmi? Və yaxud da sovetlərin vaxtında olduğu kimi onları işdən çıxarsınmı?

Təqiblərin və təzyiqlərin pik vaxtından biri Azərbaycanın nazirlər komitəsinə sədrlik etdiyi altı aylıq müddətə təsadüf etdi. Amma bu da adi prosedur qaydaları ilə baş verən bir hadisə idi. Digər ölkələr sədrlik etdiyi kimi Azərbaycan da sədrlik etdi...

Amma adi insanlar nə düşünür? Düşünürlər ki, niyə Azərbaycana sədrlik etməyə imkan verdilər? Amma bu mümkünmü? Avropanın sərəncamındakı ən təsirli təzyiq üsulu hansısa hakimiyyətin məmurlarına qarşı sanksiyalar tətbiq etmək, onların yerdəyişmə hüququnu məhdudlaşdırmaq, bank hesablarını dondurmaq və buna bənzər işləri görməkdir...

Amma buna qədər digər işlər də olmalıdır. Münasibətlər gəlib hələ o səviyyəyə çatmayıb. Onların gəlib həmin səviyyəyə çatması lazımdırmı? Belə bir şeyi unutmaq olmaz ki, Azərbaycan hakimiyyəti məmnuniyyətlə Avropa Şurası ilə vidalaşırdı...

Onsuz da dünyadan onlara heç nə lazım deyil, istədikləri öz neft və qazlarını rahat satmaqdır...

Nə yaxşı ki, indi dünya bazarında neftin qiyməti düşür. Yoxsa son vaxtlar bu hakimiyyəti tanımaq belə olmurdu, bunlar heç bir ölçü-filan bilmir və az qala dünyanı öyrətmək iddiasına düşmüşdülər...

Ümid etmək olar ki, neftin qiymətinin düşməsi onlara "soyuq vanna" kimi təsir edəcək...

Özlərini elə göstərirlər ki, guya dünya neft bazarındakı konyunkturanın onlara dəxli yoxdur. Amma Azərbaycanın valyuta ehtiyatları neçə il büdcəni doldurmaq iqtidarındadır? Lap tutaq ki, iki il olsun. Bundan o tərəfə keçməz... O səbəbdən ki, neftdən gələn gəlirləri də ağına-bozuna baxmadan xərcləyiblər. Ehtiyatda elə bir şey yoxdur. Hakimiyyətin beynəlxalq və regional təşkilatlardan azca asılı olması müəyyən mənada cəmiyyətin xeyrinədir...

Nə qədər ki, beynəlxalq maliyyə institutlarından asılılıq vardı və hökumət müəyyən mənada kredit ödəyicisi idi, müəyyən qədər islahatlar aparılırdı. Elə beynəlxalq demokratik institutlarının iradlarına da o vaxt azacıq da olsa diqqət vardı...

İndi bunların heç biri yoxdur. Fəqət, bir amil var. Bu vaxta qədər neft bu hakimiyyətə özünün bir üzünü göstərib. Amma neftin o biri üzü də var, qara üzü...

# Azərbaycana Rusiyadan yeni toy ənənəsi gəlir

**Azərbaycanda toylar aybaay, ilbəil daha da möhtəşəm keçir. Baxmayaraq ki, son aylar təmtəraqlı toy və hətta yas mərasimlərinə rəsmi qınaq və qadağa var. Artıq sentyabrdan əyalətlərdə yas mərasimlərində ehsan tamamilə yığışdırılıb. Hətta növbəti toy mərasimindən etibarən Bakı toylarında da ciddi islahatların olacağına dair məlumatlar var. Xatırladaq ki, təxminən ay yarım öncə Nazirlər Kabineti toyların keçirilməsi ilə bağlı yeni qaydalar tətbiq edib.**



## Bakıda gəlini toya vertolyotla aparacaqlar

### Rusiyanın bir çox əyalət şəhərlərində artıq yeni evlənən cütlük şadlıq evinə hava maşınında gətirilir; bu, azərbaycanlı milyonçuların da diqqətini çəkib

***

Prezident İlham Əliyev təmtəraqlı ad günlərinə, toy mərasimlərinə qarşı olduğunu birmənalı şəkildə bildirib. O, dəfələrlə müşavirədə bu cür təmtəraqlara qarşı olduğunu deyib.

Burada bir xatırlatma yerinə düşərdi. Bu günə qədər bir neçə nazirin təmtəraqlı tədbirlərə görə *(ad günü, nişan, toy və s.)* başının ağrıdığı haqda mətbuatda məlumatlar yayılıb. Onlardan ən yaddaqalanı və qalmaqallısı keçmiş iqtisadi inkişaf naziri Heydər Babayevlə bağlıdır. Deyilənə görə, sabiq nazir 2007-ci ildə 50 illik yubileyini aşırı dərəcədə təmtəraqlı keçirib. Nazirlər Kabinetinin əsas heyətinin iştirak etdiyi yubiley tədbirinin əsas yerində yubilyar əlinə badə alaraq "bu səviyyəyə gəlib çatmağıma görə həyat yoldaşıma borcluyam" sözləri ilə başlayan tost deyib. Və bu tost onun nazir statusunda sonuncu sağlığı olub. H.Bbayevin bu ehtiyatsız tostu ona baha gəlib - 2008-ci ildə keçirilən prezident seçkilərdən sonra H.Babayev Nazirlər Kabinetində təmsil olunmadı, üstəlik, onun biznesinə, mal-mülkünə əl qoyuldu, özü isə təqib edildi.

***

Son illər neft pulları ilə sürətlə zənginləşən oliqarxiya qadağalarına baxmayaraq, ailə məclislərinin - ad günü, nişan, toy və sair təmtəraqlı keçirilməsi üçün sanki bir-biri ilə yarışırlar. İndiyə kimi Bakıda keçirilən xeyli toylarda nəinki qardaş Türkiyədən, eyni zamanda qonşu Rusiyadan, hətta Amerikadan pop sənətçilərinin gətirilməsi ilə bağlı xəbərlər var. Bakının elit şadlıq evlərində bu sayaq səs-küylü məclislərin olması ilə bağlı mediada zaman-zaman xəbərlər yayılıb.

Bu zaman Türkiyə, Rusiya, Avropa, Amerika estradasının tanınmış nümayəndələrinə 100 minlərlə dollar qonorar ödənir.

"Yeni Müsavat"a daxil olan məlumata görə, növbəti toy mövsümünün açılışı Bakıda daha səs-li-küylü olacaq. Hazırda Məhərrəmlik ayı davam etdiyi üçün toy biznesi özünün sükut dövrünü yaşayır. Amma yeni il qabağı start veriləcək toy mövsümündə, xüsusilə paytaxt Bakıda şəhərə yeni ənənələrin gəlməsi gözlənir. Mənbəmiz bu barədə sensasion məlumat verib. Bildirilir ki, Bakıda gəlinin şadlıq evinə aparılması hava nəqliyyatından istifadə olunmaqla icra ediləcək. Təbii ki, Bakı kimi kiçik şəhərdə hava nəqliyyatı dedikdə təyyarə nəzərdə tutulmur.

Mənbəmiz iddia edir ki, son vaxtlar Rusiyada yaşayan və işləyən imkanlı azərbaycanlılar öz övladlarının toyunda helikopterlərdən istifadə edirlər. Belə ki, gəlini şadlıq evinə kiçik həcmli vertolyotlarda gətirirlər. Qaynağımızın iddiasına görə, bu, əsasən şöhrətpərəstlikdən irəli gəlir, həm də Rusiyada hazırda tıxac problemi olduğu üçün bu vasitəyə əl atılır. Xüsusən də Rusiyanın əyalət şəhərlərində bu ənənə xeyli vaxtdır tətbiq edilib.

Krasnoyarsk şəhərində yaşayan və orada biznes fəaliyyəti ilə məşğul olan "dəmir İlyas" ləqəbli iş adamı bir neçə ay öncə qız övladına toy edərkən bu üsuldan istifadə edib. Belə ki, o, toyu olan qızını ata evindən şadlıq evinə kiçik həcmli helikopterlə göndərib. Xatırladaq ki, "dəmir İlyas" əslən Füzuli rayonundandır. Onun uzun illərdir Krasnoyarskda yaşadığı deyilir. İlyasın kriminal aləmlə də əlaqələrinin olduğu barədə xəbərlər var.

Xatırladırıq ki, son illər Bakıda da tıxac problemi pik həddə çatdığı üçün bəylə gəlinin, onların yaxınlarının toya çatması problemə çevrilib. Bəzən qonaqlar şadlıq sarayında 1-2 saat boyunca gəlinlə bəyin gəlişini gözləyirlər. Həm də onsuz da nəqliyyatın sıxlığından əziyyət çəkən paytaxt küçələrində toy karvanları da bir tərəfdən tıxaclar yaradır. Məhz bu baxımdan bəylə gəlinin şadlıq evinə kiçik helikopterlə gəlməsi yaxşı ideyadır. Amma buna siyasi hakimiyyət necə yanaşacaq, icazə veriləcəkmi, bax, bu suala birmənalı cavab vermək xeyli çətindir...

Sonda onu da qeyd edək ki, qonşu Türkiyədə "gəlin helikopterləri" biznesi var, bəzədilmiş vertolyotlarda gəlin gətirilməsi sifariş olunur.

❑ **Sevinc TELMANQIZI**

# Leyla Yunus təcridxanada təzyiqlərə məruz qaldığını deyir

## Rauf Mirqədirovun məhkəməsi olacaq; Rəsul Cəfərovun həbsindən 4 ay ötdü

**Siyasi mənsubiyyətinə görə həbsxana həyatı yaşayan məhbusların vəziyyəti ürəkaçan deyil. Həbsxanalardakı istilik sisteminin bərbad vəziyyətdə olması səbəbindən məhbusların xəstələnməsi halları artıb.**


Leyla Yunus


İlqar Məmmədov

Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı Nigar Yaqublu dekabrın 3-də atası ilə telefon vasitəsilə əlaqə saxladığını bildirdi: "Bu bazar görüş günümüzdür. Atamın səhhəti və saxlanma şəraiti normaldır. Verdiyimiz dərmanları qəbul edir. Dostlara salam söylədi".

**Həbsdəki Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus isə təcridxanada təzyiqlərlə üzləşir. Bu barədə hüquq müdafiəçisi özü təcridxanadan yazdığı məktubda məlumat verib:** "Noyabrın 25-də saat 17:30 radələrində bir neçə nəfər kamerama soxuldu. Çox qorxdum. Mənə ədəbsiz işarələr göstərməyə başladılar. Bu işarələri küçə qadınlarına, fahişələrə göstərirlər. Qorxumdan qışqırdım. Bir az durduqdan sonra getdilər. Bütün gecəni yata bilmədim. Xəstə və yaşlı adama əziyyət vermək, onu təhqir etməkdən ləzzət alan belə kişiləri, görəsən, haradan tapırlar? Ertəsi gün əyinlərində forma daşıyan həbsxana işçiləri kameraya daxil oldular. Məni yenidən möhkəm qorxu tutdu. Nə dediklərini anlamırdım, elə hey ağlayırdım. Çıxıb getdilər. Günorta yenidən qayıtdılar və dedilər ki, həkimləri təhqir etdiyimə görə mənə töhmət verilib. Məni fiziki cəhətdən tamamilə məhv ediblər. İndi də məqsədləri alçaltmaqla, təhqirlərlə mənəvi cəhətdən sıradan çıxartmaqdır".

**Həbsdəki digər hüquq müdafiəçisi Rəsul Cəfərovun** nümayəndəsi Günay İsmayılova onun səhhətinin normal olduğunu söylədi.

**"Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun** dekabrın 8-də məhkəməsi olacaq. Bu barədə jurnalistin vəkili Elmar Süleymanov məlumat verdi: "Dekabrın 8-də Səbayel məhkəməsində şikayətlərimizə baxılacaq. Rauf bəyin müdafiəçiləri ilə görüşünün məhdudlaşdırılması və qanunsuz həbsdə saxlanılması ilə bağlı şikayət vermişik".

**REAL sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova son durumla bağlı bunları dedi:** "Dekabrın 3-də İlqar zəng etmişdi. Əsas problemi kamerada çəkilən siqaretdir. Onun sağlamlığına ciddi təsir edir. Yerinin dəyişdirilməsi ilə bağlı müraciət edib. Bu həftə ərzində problemin həllini gözləyirik".

Gənc siyasi məhbus Orxan Əyyubzadənin anası Rəhimə Məmmədova oğlunun sağlamlıq durumunun və saxlanma şəraitinin normal olduğunu söylədi.

NİDA-çı gənc Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova da məhkəmənin vaxtını gözlədiklərini bildirdi.

**Həbsdəki digər NİDA-çı gənc Zaur Qurbanlının atası Araz Qurbanlı bu ayın sonunda olacaq əfvə ümid etdiklərini bildirdi:** "Tez-tez telefonla danışırıq. Saxlandığı otaqda istilik yaxşıdır. Elə bir şikayəti yoxdur. Bu ayın sonunda olacaq əfvdə oğlumun azad olunub-olunmaması ilə bağlı bir söz deyə bilmərəm. İstərdim ki, övladım yanımda olsun. Bu əfv prezidentin səlahiyyətində olan bir şeydir. Əvvəl iki nəfər buraxılıb. Ona görə ümidimiz var. Gözləyirik görək nə olacaq".

**Pərviz Həşimlinin vəkili Bəhruz Bayramov yaxın günlərdə hüquqlarını müdafiə etdiyi şəxsin məhkəməsinin olacağını söylədi: "Son günlər görüşməmişəm.** Məhkəməsi olacaq. Dəqiq zaman olmasa da, yaxın günlərdə olacağı gözlənilir. Apelyasiya Məhkəməsinin ilkin qərarından şikayət vermişik. Saxlanma şəraitindən heç bir narazılığı yoxdur".

❑ **Cavanşir ABBASLI**

# Əli Kərimli "Yeni Müsavat"a köşə yazacaq...



**Elşad MƏMMƏDLİ**

## AXCP sədri ilə gələsi böyük gələcək gəlməyəcək...

**AXCP-ni tükədib, müxalifətin qeyri-ciddi obrazını formalaşdırmaq üçün əlindən gələn hər şeyi edib. İndi də keçib başqa missiyaya - loru dildə desək, işverənliyə və mətbuatı və mətbuat işçilərini şərləməyə.**

Əlbəttə, söhbət Əli Kərimlidən gedir. Bu adamın siyasətdən anladığı ancaq qarşısındakıları şantaj etməkdir. Allah qoymasa, prezident olmaq istəyir. Və necə birisi olacağını da bəri başdan bəyan edir. Ölkənin ən böyük media quruluşu ilə ağına-bozuna baxmadan çəkişən, psevdonimlərlə, hətta qadın "nik"ləri (facebookda) ilə yazılar yazan Əli Kərimli, prezident olsa, görün nələr edər. Hələlik əlində 50-60 nəfər virtual fəal, bir dənə də sınıq-salxaq qəzeti var. İmkanları genişlənsə, bu kin dağarcığı düşmən bildiklərini küçənin ortasındaca güllələtdirər.

Hazırda cəmiyyətin və siyasətin "ofsayt"ında olan cənab Kərimli bu halda belə hər kəsin üzünü, əlini-ayağını cırmaqlamağa qadirdir. Bütün uğursuzluqlarını, çevrəsindəki problemləri, siyasi xəttindəki boşluqları Rauf Arifoğluna qarşı böhtan savaşı ilə doldurmağa çalışan birisinin siyasi gələcəyinə böyük şübhə var. Əminik ki, Əli Kərimli ilə gələsi gələcək heç zaman gəlməyəcək...

AXCP sədri, deyəsən, yaman narahatdır; birdən Müsavat Partiyası 2015 üçün iqtidarla anlaşar, o qalar qıraqda. Özü bu cür gizli anlaşmalardan keçib, prosesi bilir, üstəlik, qarşılığında iki dəfə deputat seçdirilib, var-dövlət sahibi olub. Onun bu qara-qışqırığı da buna görədir. Bu dəfə kənarda qala biləcəyini düşünür və bir başqasının da onun yerini tuta biləcəyindən həyəcan keçirir.

Buna görə də özü üçün həlledici hədəf belirləyib. Həmin hədəfi cəmiyyətin gözündən salmaq təşəbbüsləri alınmır - "Yeni Müsavat"ın elektron versiyası hər gün güclənir və kağız variantın heç zaman çata bilmədiyi bir tiraja yüksəlir. "Azadlıq" qəzetinin özü və elektron versiyası isə yerlərdə sürünür. Millət kin qusan, nifrət püskürən bir cameənin söyüşlərindən bezib...

Buna görə də cənab Kərimli şəxsən özü Azad Akifoğlu imzası ilə yaradıcılığını genişləndirməkdədir. Nə etsin, çevrəsində adam qalmayıb. Qalan Fuad Qəhrəmanlı kimisidir - o da artıq iqtidarın caynağındadır. Əli Kərimli yaxşı bilir ki, artıq Fuaddan ona "cur" olmayacaq. Zəif yerləri elə çoxalıb ki, istənilən an digərləri kimi, tamamilə əks işarə ilə və "üzüqara" üstünə qayıda bilər...

Cənab Kərimli indi ciddi -cəhdlə çalışır ki, R. Arifoğlunu İlham Əliyevin gözündən salsın. Molla Nəsrəddinin lətifəsindəki kimi, öz yalanlarına özü inanıb - düşünür ki, birdən Arifoğlu iqtidarla Müsavatın arasında körpü olar, qorxduğu səsrani baş verər, qalar kənarda...

Ona görə də keçib birbaşa işverənliyə. Bir müxalifət lideri, özünə və ranqına yaraşmayan tərzdə qəzetində ölkə prezidentinə mesaj verir ki, birdən R. Arifoğlunu bağışlayarsan, bağışlama, o filan vaxtı sizə və prezident Heydər Əliyevə filan şeyləri yazıb. Nəbada, unudasan. Unutmusansa, al təzədən oxu...

Ayıb olsun, Əli Kərimli. Bunudamı edəcəkdin! Sən və sənin "ozaboçennı" mirzələrin zamanında yalançı mənbələr düzəldib, "Yeni Müsavat" qəzetində 2003-cü ildə yazılan yazılara abzaslar əlavə etdirib, fərqli qəzetlərdə çap etdirmisiniz. Orada indiki və sabiq prezidenti ən ağır sözlərlə siz təhqir etmisiniz. Və guya bunu "Yeni Müsavat" yazırmış kimi, Aynur Camalqızının və Rauf Arifoğlunun əleyhinə siz tirajlamısınız.

Hansı ki, Mətbuat Şurasındakı müzakirələrdə və daha sonra məhkəmə qaydasında həyata keçirilən araşdırmalarda bu bəd əməliniz tamamilə ifşa olundu. Məlum oldu ki, "Yeni Müsavat" qəzetində gedən bir sıra yazılara ağır təhqirlərlə dolu abzaslar salan sənin adamlarınmış. İndi bu qorxunc saxtakarlığı yenidən özün dövrüyəyə soxursan.

İndi Əli Kərimlinin bütün əsabələri həşir salıb ki, Rauf Arifoğlu deputat mandatı almaq istəyir və buna görə də fəaliyyət göstərir, iqtidara yarınır.

Fuad Qəhrəmanlı ortada olmaqla, eyni sözləri 2005-2006-cı illərdə deyirdilər. O zaman Müsavat Partiyasının parlamentə getməsi və təkrar seçkilərə qatılması qərarına görə də məhz Arifoğlu və indiki başqan Arif Hacılı hədəfdə idi. Əminliklə yazırdılar, hələ bir and da içirdilər ki, həm A. Hacılı, həm də Arifoğlu mandat alacaqlar, hakimiyyətlə anlaşıblar...

Eyni iddialar qısa zaman üçün 2010-cu ildə də təkrar olundu. Sonra araya müttəfiqlik girdi, susdular. Amma indi yenidən başlayıblar.

Allah edə, bu dəfə dedikləri düz ola. Üstündən 10 il keçəndən sonra.

Ən böyük arzum budur ki, Əli Kərimli gələn il bu zaman millət vəkili Rauf Arifoğlunu "ifşa" edə. Həm də düz 15 il...

Sonrası da Allah Kərimdi...

O zamanlar 65 yaşlı Əli Kərimlini köşə yazarı kimi "Yeni Müsavat"a işə götürmək də olar...



# Dövlətçilik körpüyə çıxanda

Zamin HACI
zaminhaci@gmail.com

**Yapistlər hakimiyyətdə qaldıqca xalqımız da onlara bənzəməyə başlayır. Misal üçün, insanlarda amansızlaşma, qəddarlıq, özündənrazılıq kimi mənfi keyfiyyətlər artmaqdadır. Bunu son dövrə aid 3 misalla yazacağam.**

Təzəlikcə Lökbatanda bir ana intihar elədi, öldü. Ananın durumu çox ağır idi, 3 uşaqla kirayə götürdüyü gözəllik salonunda yaşayırdı. Salonu isə sələm pulları ilə alıbmış. Qəzetimiz ondan müsahibə alımışdı, qadın həmin intervüdə demişdi ki, sələmçi onu bezdirib, hər gün gəlib qazandıqlarını tutub əlindən alır, belə getsə intihar edəcək. Müsahibədən bir həftə keçməmiş qadın dediyini elədi, özünü öldürdü.

Mən bu hadisə haqda sosial şəbəkədə xəbər yayanda üstündə şərh də verdim, yapistlərin karikatur Ana-Uşaq Komitəsini tənqid elədim. Doğrudan da bu qurum, onun sədri Hicran Hüseynova boş-boş yapizm tədbirləri, sosial-inzibati yaltaqlıqla məşğuldur, hələ indiyə qədər bir yaralı barmağa... sarıq vurduqlarını eşidən olmayıb. Eyni şey ombudsman institutuna da aiddir və "Azərbaycanda qadınlar vəzifəyə gəlsə yaxşı olar" demaqogiyasına yaxşı cavabdır. Amma bu ayrı mövzudur.

Həmin xəbəri paylaşandan sonra bir neçə nəfər ora "Dövlət neyləsin buna", "Gərək sələmə pul almazdı", "Üç uşağı küçədə qoyub gedən qadın pis qadındır" tipində şərhlər yazdılar. Şərhlərdə leytmotiv (ana xətt) isə dövlətin günahsızlığı idi.

İkinci misal Goranboyda ailə qətliamından sonrakı hadisələrə aiddir. Orda bir kişi arvadının ailəsinə bomba atıb 7 nəfəri öldürdü. Ardıyca, o kişinin qardaşı el-oba qınağına, ictimai təzyiqə dözməyib intihar elədi, oğlunun intiharını görən atanın da ürəyi partlayıb öldü. Beləcə, bir kənddə qısa müddətdə bir hadisə üzrə ölü sayı 10-a çatdı. Dəhşətli mənzərədir. Bəyəm orda dövlət qurumları vaxtında düzgün çalışsa elə durum yaranardımı?

Üçüncü misal artıq "İntihar körpüsü" kimi tanınan, "Koroğlu" metrosunun üstündəki avtomobil körpü ilə bağlıdır. Orda intihara cəhdlər gündəlik xarakter alıb, cəmiyyətdə isə buna ironik, sinik yanaşmalar artır. İnsanlar dərdini deməyə qurum tapmayıb diqqəti bu cür özlərinə cəlb edirlər, cəmiyyət, ən pisi isə bəzi jurnalistlər buna lağ edir. Deyirlər, yazırlar ki, intiharçı ora çıxıb yolda tıxac yaradır, özünü öldürmək istəyən ayrı yerə getsin, intiharı oyuna döndəriblər və sair.

Açıq görünür ki, vətəndaşlarımızda dövlət haqda, onun sosial vəzifələri haqda heç bir anlayış yoxdur. Yapistlərin 21 illik qəddar, repressiv hakimiyyəti nəticəsində insanlar dövləti ancaq cəza mexanizmi, "adamlatı tutub döyən polis" kimi görürlər.

Halbuki loru dillə desək, dövlət - insanların təklikdə çətinlik çəkdiyi işləri toplu halda asan eləmək üçün yaratdıqları bir qurumdur. Bəzən yuxarıda sözü gedən yazıq, potensial intiharçı insanlara kömək üçün internetdə, televiziyada sosial aksiyalar keçirilir, adamlar pul toplayırlar. Çox vaxt bunun köməyi olmur. Çünki mexanizm zəifdir. Velosipedi təzədən kəşf etməyə nə ehtiyac? Bu cür yardımların mexanizmi dövlət olmalıdır, onun proqramları olmalıdır. Mən, sən, o - vətəndaşlar vergi ödəyib dövlətin sosial proqramları üçün fondlar yaradırıqsa, təzədən facebookda ayrıca "Məmməd" üçün pul yığmağın adı nədir? Nə üçün Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi düzgün işləmir?

Bax, məsələ də elə bundadır. Dövlət qurumları yaxşı işləsə heç körpüyə çıxan da olmaz. Hər hansı vətəndaş, insan həyatında yanlış yapa bilər, misal üçün, kredit götürüb ödəməz, uşaq doğub saxlamaqda çətinlik çəkər, nə bilim, çay içəndə boğazını yandırar və sairə. Dövlət həm də məhz belə hallarda - şəxsi faciələrlə üzləşən, atılmış insanlara yardım üçün işə düşməlidir. Yenə yazıram, biz vergilər ödəyirik ki, uyğun, maaşlı qurumlar yaransın, daha mən işimi atıb gedib körpüyə çıxanın dərdini çəkməyim. Biz vergi ödəyəndə artıq o dərdi öncədən çəkmiş oluruq. Elə bil hansısa kəndi düşmən alır, sən də Müdafiə Nazirliyini deyil, o kəndin sakinlərini qınayırsan.

Yapistlərin "dövlətçilik" deyə gopa basdığı zad budur. Olmayan şeydən danışırlar.

# "Putinin səfərində Krım və Qarabağ məsələsinə həssas yanaşma görmədik"

## Atilla Kaya: "Türkiyə-Ermənistan sərhədlərinin açılması Rusiyanın milli maraqlarına uyğun deyil"

**Rusiya prezidenti Vladimir Putinin Türkiyə səfəri və prezident Rəcəb Tayyib Ərdoğanla bir sıra anlaşmaları imzalaması rəsmi Moskvanı sanksiyalarla çökdürməyə çalışan dünya güclərində heyrət doğurdu. Bu mənada Türkiyənin ağır günlərini yaşayan Rusiyaya qucaq açması fərqli yorumlara səbəb olub. Azərbaycanda da maraqla izlənilən bu səfərə Türkiyənin millətçi kəsiminin münasibəti necədir? Türkiyə Böyük Millət Məclisinin MHP-li millət vəkili Atilla Kaya ilə bu barədə danışdıq.**

***- Putinin Rusiya səfərinə, anlaşmalara MHP-nin və şəxsən sizin mövqeyiniz necədir?***

- Səfərin məhz indiki dönəmdə həyata keçirilməsi diqqət çəkir. Səfər Rusiyanın Ukrayna hadisələri ilə əlaqədar Qərb və Amerika tərəfindən embarqolara məruz qalması, neftin qiymətinin və rus rublunun kursunun aşağı enməsi şəraitində reallaşıb. Üstəlik, son vaxtlar Türkiyənin həm ABŞ, həm də Avropa Birliyi ilə əlaqələrində bir sıra gərginliklərin yaşandığı dönəmdə Putinin ölkəmizə gəlməsi sözsüz ki, diqqət çəkir. Rusiya embarqolarla sıxışdırıldığı bir dönəmdə Türkiyədə çıxış yolu eldə edə bilər deyə Putinin səfəri önəm kəsb edir.

***- Putinin səfəri daha çox Rusiyaya lazım idi, yoxsa Türkiyəyə?***

- Bu, Rusiyaya daha çox lazım idi. Dediyim kimi, neftin ucuzlaşması, embarqolar Rusiya iqtisadiyyatını çətin duruma salıb. Belə bir dönəmdə hər iki ölkə alternativsiz olmadıqlarını, başqa seçim imkanlarının da olduğunu nümayiş etdirmələri baxımından önəmli bir ziyarət idi. Bunun iqtisadi əhəmiyyəti var. 100 milyard dollarlıq ticarət həcmi ilə bağlı mühüm proses gedir. Bununla bağlı olaraq Türkiyədə bir para bürokratik əngəllər vardı ki, Putinin gəlişi ilə onların aradan qaldırılması iki ölkə arasındakı əlaqələr baxımından önəmlidir. Amma Suriya mövzusunda iki ölkənin baxışlarının və mövqeyinin fərqli olduğu ortaya çıxdı.

***- Gözlənti vardı ki, Krımın ilhaqı, Krım türklərinin taleyi iki prezidentin əsas müzakirə mövzularından olacaq. Sizcə, prezident Ərdoğan Krım məsələsinə nə dərəcədə həssas yanaşdı?***



"Böyük Millət Məclisində azərbaycanlı girovlar məsələsini gündəmə gətirəcəyik"

- Türkiyənin Krım məsələsini gündəmə gətirib-gətirmədiyi ictimai rəyə bəlli olmadı, hər halda, mətbuata çıxmadı. Amma Rusiyanın Krımı ilhaq etməsinə etiraz olaraq Putinin səfəri zamanı etiraz aksiyaları keçirildi. Bu səfərdə Krım məsələsində həssas yanaşma olmadı. Çünki həm mətbuata verilən açıqlamalarda, həm də ikitərəfli görüşlərdə bu istiqamətdə yenilik duymadıq. Sadəcə, ictimai təşkilatların aksiyaları oldu. Ancaq yüksək səviyyədə Krım məsələsinə həssas münasibətin göstərildiyini zənn etmirəm.

***- Azərbaycanda gözlənilən bu idi ki, Türkiyə prezidenti rusiyalı həmkarına Qarabağın işğalına son verilməsi üçün zəruri addımların atılması barədə hansısa çağırışlar edəcək, Ankaranın Bakının yanında olduğunu bir daha bəyan edəcək. Bəs bu mövzuda hansısa müzakirələr aparılmasından məlumatınız varmı?***

- Vallah o mövzuda da hansısa bilgiyə sahib deyilik. Lakin bildiyimiz budur ki, bu istiqamətdə də hər hansı bir yenilik olmadı. Hər halda, danışıqlarda Türkiyə hökumətinin Qarabağ məsələsini gündəmə gətirdiyini müşahidə etmədik.

***- Necə bilirsiniz, Putinin Ankara səfərindən sonra Türkiyənin Ermənistanla sərhəd qapılarını açması məsələsi aktuallığını saxlayacaqmı?***

- Burda əsas diqqət çəkən digər məsələdir. Putindən iki gün öncə katoliklərin lideri Roma Papası Türkiyəyə səfər etmişdi. O, təyyarədə sərhəd qapılarının açılması ilə bağlı açıqlama verdi. Bu mənada "Yeni Müsavat"a ötən müsahibəmdə dediyim kimi, 2015-ci ilin ilk aylarında Türkiyənin hərtərəfli basqılara məruz qalacağı anlaşılır. Bundan sonra hansı addımların atılacağını proqnozlaşdırmaq çətindir.

***- Siz Rusiyanın Türkiyə-Ermənistan sərhəd qapılarının açılmasına maraqlı olmadığı barədə fikirləri bölüşürsünüzmü?***

- Türkiyə-Ermənistan qapılarının açılmasını müdafiə edənlərin ən birinci arqumenti budur ki, - hətta Azərbaycanda da bu fikri dilə gətirənlər var - Türkiyə qapılarını ermənilərin üzünə açarsa, Ermənistan Rusiyanın təsirindən qurtarıb Türkiyə və Qərbin təsiri altına düşəcək. Belə bir düşüncə var. Bu yanaşmanın gerçəklərə nə dərəcədə uyğun olub-olmadığı ayrı məsələdir. Doğrusu, Rusiyanın da buna imkan verəcəyini zənn etmirəm. Türkiyə-Ermənistan sərhədlərinin açılması Rusiyanın milli maraqlarına uyğun deyil.

***- Atilla bəy, erməni işğalındakı Kəlbəcərə dədə-babasının məzarını ziyarətə gedən iki azərbaycanlı 5 aydır girov saxlanılır. Nədən Türkiyə hökuməti onların xilası üçün hərəkətə keçmir? MHP-nin bununla bağlı parlamentə, hökumətə çağırışı olacaqmı?***

- Ərdoğan hökumətinin təkcə Azərbaycanla bağlı deyil, həmçinin Türkiyənin içində də türk milli kimliyi ilə əlaqəli məsələlərə soyuq bir yanaşması var. Bu, onların ideoloji baxışından münasibətindən gəlir. Amma biz Məclisdə azərbaycanlı girovlar məsələsini gündəmə gətirə biləriк.

***- Böyük Millət Məclisinin toplantısı nə vaxt olacaq?***

- Qarşıdakı iki həftə ərzində büdcə müzakirələri olacaq. Həmin müzakirələrdə bu məsələni dostlarla danışıb gündəmə gətirəcəyik.

**❑ Elşad PAŞASOY**

# "Qarabağda hər an hər şey ola bilər"

## Hasan Oktay: "Türkiyə-Azərbaycan əlaqələrini pozmaq istəyənlər var, ancaq bunlara meydan verməmək lazımdır"

**"Türkiyə bölgədə ən güclü dövlət olan Azərbaycanla əlaqələrini hər gün inkişaf etdirməkdədir. Bu əlaqələr hər iki dövlət üçün lazımlıdır. Azərbaycanın Qərbə açılan qapısı Gürcüstan üzərindən Türkiyədir. Türkiyənin isə Şərqə açılan 3 qapısı var, bunlardan biri Azərbaycandır. Real siyasi baxımdan yaxınlaşanda, bu qarşılıqlı inkişafa açıq əlaqə forması regional güc tarazlığını Azərbaycanın lehinə artıracaq. Azərbaycan sahib olduğu qaynaqlardan balanslı istifadə və bu mənbələrdən əldə ediləcək gəlirin balanslı paylanması, ictimai ədaləti təmin etməklə bölgədə daha güclü olacaq".**

Bu sözləri azvision.az-a müsahibəsində tanınmış politoloq, Qafqaz Strateji Araşdırmalar Mərkəzinin (KAFKASSAM) sədri Hasan Oktay deyib. O bildirib ki, Türkiyə-Azərbaycan əlaqələrini pozmaq istəyənlər var, ancaq bunlara meydan verməmək lazımdır.



***- Münasibətlərimizdə Qarabağ mövzusu harada yer alır?***

- Qarabağ soyuq müharibə dövründən qalan bir problem olaraq 22 ildir davam etməkdədir. Status-kvonun qalması Ermənistana sərf edir, amma bu status-kvo belə qala bilməz. Ermənistan bu gedişatı davam etdirməkdə çətinlik çəkir. Ermənistan vasitəsilə Türkiyə-Azərbaycan əlaqələrini hədələməyə çalışanlar Qarabağ problemini davamlı nəzarətlərində saxlamağa çalışırlar. Onların əsas məqsədi Türkiyə ilə Azərbaycanın arasını vurmaqdır. Qarabağ Qafqazın problemi olmaqan əvvəl Türk dünyasının problemidir və bu geniş perspektivdən baxılaraq həllini tapacaq. Təbii ki, Azərbaycan döyüş variantından başqa seçənəkləri də hərəkətə keçirməlidir.

***- Nədir bu seçənəklər?***

- Diplomatiya beynəlxalq əlaqələrdə bir nömrəli açardır. Azərbaycan əvvəlcə bütün imkanlarını işə salaraq, diplomatiya yürütməlir. Savaş son variant ola bilər, amma diplomatiya davamlı dövrədə olmalıdır. Diplomatiya ilə dünyanın bütün diqqətlərini bölgəyə çəkə bilər. Qarabağda kim nəyi və nə üçün istəyir gerçəyini bütün dünyaya yaymaq lazımdır.

***- Bəs Rusiyanın yanaşması necə olacaq?***

- Rusiya çar dövrü strategiyasını davam etdirir. Onun bu strategiyanı dəyişməli olduğunu hər bir platformada ifadə etməliyik. Rusların Qafqaza, türk dünyasına baxışı dəyişməlidir.

***- Yaxın perspektivdə Qarabağda hansı hadisələr baş verə bilər?***

- Qarabağda hər an hər şey ola bilər. 2015-ci il Qafqaz üçün çox dinamik keçəcək və bunun düyün nöqtəsi Qarabağ olacaq.

YENİ MÜSAVAT
N 296 (6005) 4 dekabr 2014



# Qarabağ, İŞİD təhlükəsi, dəyərini itirən BMT və neft

"Rossiya 24" telekanalına müsahibəsində prezident İlham Əliyev bəzi mühüm mesajlar verib; "Neft 60 dollar da olsa, iqtisadiyyatımız sabit inkişaf edəcək", "İŞİD Azərbaycana böyük təhlükə deyil" deyib...

**Azərbaycan prezidenti İlham Əliyevin "Rossiya 24" telekanalına geniş müsahibəsi barədə xəbər verilib. Müsahibədə dövlət başçısı regional və qlobal xarakterli problemlərlə bağlı sualları da cavablandırıb.**

"Təəssüf ki, biz Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlarda uğurdan danışa bilmirik. Səbəb olduqca sadədir - Ermənistan sülh istəmir". Bu sözləri ölkə başçısı Güney Qafqazın ən iri və üzücü konfliktindən danışarkən deyib. Qeyd edib ki, Minsk Qrupuna həmsədr dövlətlərin rəhbərləri status-kvonun qəbuledilməz olduğunu dəfələrlə bəyan ediblər: "Status-kvonun dəyişilməsi Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi deməkdir, hansı ki, bu, nizamlanma prosesinin əsas şərtidir".

**Prezident münaqişənin postsovet məkanındakı digər ixtilaflardan fərqli olduğunu söyləyib:** "Bu fərq ondan ibarətdir ki, Qarabağ konfliktinin həlli ilə bağlı BMT-nin qətnaməsi mövcuddur. Həmin qətnamələrdə Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından dərhal və şərtsiz çıxması tələb edilir. Lakin onlara 20 ildən çoxdur ki, əməl olunmur. Təəssüflər olsun ki, bu qətnamələrin həyata keçirilməsini təmin edən mexanizm yoxdur. Bu qətnamələr münaqişənin nizamlanmasının əsasını təşkil etməlidir".

**İlham Əliyev bu il danışıqlar prosesində daha böyük intensivlik müşahidə olunduğunu bildirib, bu xüsusda son Paris görüşünü xatırladıb:** "Həm Azərbaycan, həm də Ermənistan tərəfi Paris görüşünü müsbət qiymətləndirdi. Düz iki həftə sonra isə Ermənistan Azərbaycanın işğal altında olan ərazilərində hərbi təlimlər keçirməyə başladı. Hansı ki, bu təlimləri Ermənistanda, hətta keçmiş DQMV ərazisində də deyil, məhz Azərbaycan Ağdam rayonu ərazisində, qoşunların təmas xəttində keçirdilər. Parisdə keçirilən müsbət görüşlərdən sonra təxribat törətmək nəyə lazım idi?"

**Prezident dünyada beynəlxalq institutların deformasiyası prosesinin getdiyini təəssüflə vurğulayıb:** "Bu, çox təhlükəli və narahatedici vəziyyətdir. Dünyanın aparıcı ölkələri bu barədə öz sözlərini aydın bildirməlidirlər. Özü də tək bəyanatlarla yox, həm də qəbul edilən qərarlara hörmət eləməklə..."

"Dünyada neftin qiymətinin düşməsi, şübhəsiz ki, planlarımıza mənfi təsir göstərəcək. Lakin biz müxtəlif ssenarilər işləyib hazırlamışıq. Neftin qiymətinin 60 dollar olacağı təqdirdə də, iqtisadiyyatımız sabit inkişaf edəcək". **Bu fikri isə ölkə başçısı "qara qızıl"ın dünya bazarında ucuzlaşmasının sonuclarından danışarkən bildirib:** "Yeganə mənfi hal budur ki, biz il ərzində görməyi planlaşdırdığımız işləri iki ilə görəcəyik. Sadəcə, prioritet olmayan istiqamətlər, infrastruktur layihələri üzrə büdcə xərclərini azaldacağıq. Yaxşı ki, əvvəlki illərdə biz artıq həmin layihələri əsasən həyata keçirmişik... Heç kəs nə olacağını irəlidən dəqiq deyə bilməz. Görünür, bunun üçün obyektiv səbəblər var. Axı, indiyədək heç kəs dəqiq izah edə bilmir ki, bütün bunlar nə üçün baş verib".

**İlham Əliyev dünyanı təhdid edən terror təhlükəsinə, o sırada İŞİD probleminə də toxunub (APA):** "Terrorçuları yaxşılara və pislərə bölmək olmaz. Yəni sənin düşməninə qarşı mübarizə aparan terrorçu yaxşı, sənin özünə qarşı mübarizə aparan isə pis terrorçudur. Mənim fikrimcə, öz həllini tapmalı olan başlıca məsələ budur. Bu məsələ dünyanın aparıcı ölkələri tərəfindən həll edilməyincə, radikalizmə və terrorizmə qarşı mübarizədə ümumi anlaşma olmayınca belə vəziyyətlər daim yaranacaq".

**Dövlət başçısı təklif edib ki, öncə vəziyyəti düzgün qiymətləndirmək üçün bu qondarma strukturun necə əmələ gəlməsini, haradan meydana çıxmasını dəqiq başa düşmək lazımdır:** "Axı o, başqa planetdən uçub gəlməyib. Bütün bunlar ən azı son 10 ildə məhz Yaxın Şərqdə baş verən hadisələrin nəticəsidir. Bu, Yaxın Şərqdə həyata keçirilən siyasətin bəhrəsi və həmin siyasətin nəticəsidir. Bu, bir daha sübut edir ki, radikal, fanatik qrupların dəstəklənməsi məsələlərində çox ehtiyatlı və uzaqgörən olmaq lazımdır".

**Radikalizmə qarşı başlıca qarantın təhsil olduğunu deyən İlham Əliyev ölkə sərhədlərinin etibarlı qorunduğuna diqqət çəkib:** "Əlbəttə, deməzdim ki, bu, bizim üçün böyük təhlükədir. Amma təbii ki, bu mövzunu izləməliyik. Bu, bizim sərhədlərdən elə də uzaq deyil. Azərbaycanın daxildə radikalizm mənbələri yoxdur. Biz, əlbəttə, müsəlman ölkəsiyik, cəmiyyət öz ənənələrinə, dininə sadiqdir. İslam sülh dinidir. Bizim milli və dini dəyərlərimiz bütün məsələlərin həllinə məhz bu cür - sülh yolu ilə yanaşma tələb edir... Yüz faiz savadlılıq olan ölkədə potensial təhlükə ola bilməz. Lakin kənardan baxanda, əlbəttə, biz regionun bir hissəsiyik, buna görə də sərhədlərimiz ətrafında baş verən proseslər, təbii ki, bizi narahat edir".

❑ **Hazırladı: Siyasət şöbəsi**

# Ankara-Moskva yaxınlaşması Qərbi şoka salıb





**Qabil Hüseynli:** "Hər tərəfdən sanksiyalarla sıxışdırılan və iqtisadiyyatı ağır duruma düşən Rusiya üçün Türkiyə bir nəfəslik rolunu oynayır"

**Rusiya prezidenti Vladimir Putinin Türkiyəyə səfəri və bu iki ölkə arasında yaxınlaşma son iki günün ən diqqətlə izlənən hadisəsidir. Türkiyənin Qərbin sanksiyalarla sıxdığı Rusiya ilə belə bir zamanda ciddi şəkildə yaxınlaşması, siyasi və iqtisadi əməkdaşlığı birmənalı qarşılanmır.**

Ortaya bir sıra suallar çıxır. Türkiyə-Rusiya yaxınlaşmasından, Putinin səfərindən daha çox kim qazandı? Bu yaxınlaşma Rusiyaya qarşı sanksiyalar tətbiq edən Qərbin Türkiyəyə münasibətini korlaya bilərmi? Türkiyə hakimiyyəti yaranmış fürsətdən Rusiya vasitəsilə Qarabağın azad edilməsi üçün istifadə edə bilərmi?

Bu suallarla müraciət etdiyimiz **politoloq Qabil Hüseynli** bildirdi ki, Vladimir Putinin Türkiyə səfəri bütün dünyada, əsasən də Qərb dünyasında şok effekti yaradıb. Çünki NATO üzvü olan, Avropa Birliyinə can atan bir ölkə onların Rusiyaya qarşı sanksiyalarına qoşulub Rusiya ilə əlaqələri minimuma endirmək əvəzinə, əlaqələri genişləndirir. **Bu addım sözsüz ki, Türkiyə üçün əlavə problemlər yaradacaq:** "Türkiyənin artıq Avropa Birliyində üz döndərdiyi açıq-aydın nəzərə çarpır, onun Avropa Birliyinə üzv olmaq şansları minimuma enib. Eyni zamanda ABŞ-la arasında ziddiyyətlər artır. Rusiya ilə ciddi şəkildə yaxınlaşmadan sonra yəqin ki, bu ziddiyyətlər antoqonist xarakter daşımağa başlayacaq. Putinin səfərindən qazanan Rusiya oldu və olacaq. Hər tərəfdən sanksiyalarla sıxışdırılan və iqtisadiyyatı ağır duruma düşən Rusiya üçün Türkiyə bir nəfəslik rolunu oynayır. Necə ki, vaxtilə İran Ermənistan üçün bir nəfəslik rolunu oynadı və onun tam blokadaya alınmasına imkan vermədi, indi də eyni funksiyanı Türkiyə Rusiya üçün oynamağa başlayıb. Məsələn, Türkiyə Türkmənistan qazının, "Transxəzər" qaz kəməri xəttinin işə düşməsinə, TANAP layihəsinin, TAP layihəsinin işə düşməsinə çalışmaq əvəzinə, Rusiya ilə qaz sövdələşməsinə getdi. Ümumiyyətlə, Rusiyanın burada strategiyası bəlli olduğu halda Rusiya Qərbin cəbhəsini parçalayır, NATO-nun nüfuzlu dövlətlərindən birini öz tərəfinə çəkir. Putin buna nail olmaqla çeviklik nümayiş etdirdi. Əvəzində Türkiyənin Rusiyadan nə alacağını söyləmək isə çətindir. İlkin olaraq Rusiya Türkiyəyə verəcəyi qazın qiymətini aşağı salacağını bəyan edib. Türkiyədə belə düşünənlər var ki, Rusiya nəhəng bazardır, bu bazara girib yer tutmaq, sərmayə yatırmaq sərfəli olar. Amma bir azdan məsələlər səngiyəndən sonra məlum olacaq ki, Rusiyaya Türkiyənin orta səviyyəli texnologiyası deyil, Qərbin yüksək inkişaf etmiş texnologiyası lazımdır. Rusiya yenidən Qərb şirkətlərini cəlb edəndən sonra Türkiyə orada həmin şirkətlərlə rəqabət aparmaq gücünə malik olmayacaq. Eyni zamanda mənim zənnimcə, kifayət qədər nüfuzunu itirmiş bir vəziyyətdə qalacaq".

**Q.Hüseynli onu da dedi ki, son dövrlər Türkiyənin xarici siyasətində baş verən bu cür anlaşılmazlıqlar Türkiyəni xeyli təcrid vəziyyətinə salıb. Qərblə münasibətlər pisləşir, ərəb ölkələri ilə münasibətlər yaxşı deyil:** "İndi birdən-birə Rusiya ilə genişmiqyaslı əlaqələrə getmək, zənnimcə, Türkiyə üçün nəticəsi heç də arzu edilməyən vəziyyətlər yaradacaq. Bu vəziyyət Rusiya üçün xeyirli olsa da Türkiyə üçün xeyirli olmayacaq. Belə demək mümkündürsə, Türkiyə tarixi səhvə yol verdi. Bu tarixi səhv onun Rusiya bazarlarında müəyyən qədər möhkəmlənməsinə şərait yaradacaqsa, Rusiya üçün daha geniş imkanlar açacaq, Rusiyanın manevr imkanlarını genişləndirəcək".

**Politoloq Rusiya-Türkiyə yaxınlaşmasının Qarabağın işğaldan azad olunmasına təsir edəcəyini düşünmür:** "Mən inanmıram ki, Putin Ərdoğanın bir sözü ilə Qarabağ məsələsində hansısa güzəştə getsin. Nəzərə alsaq ki, Ərdoğan da Qarabağ məsələsini Rusiya qarşısında kəskin qoymur, deməli, ümid etməyə dəyməz. Türkiyə Rusiyaya nəfəslik rolunu oynamaqla Ermənistanın hərbi müttəfiqinin güclənməsinə kömək edir. Ərdoğan Qarabağ məsələsini Putinin qarşısında kəskin şəkildə qoysa, bunu "olmazsa olmaz" prinsipi kimi gündəmə gətirsə, bəlkə o halda heç olmasa 7 rayonun azad edilməsi mümkünləşər. Amma Qarabağ məsələsinin sadəcə Azərbaycan cəmiyyətinin könlünü oxşamaq üçün epizodik olaraq danışıqlarda dilə gətirilməsi müşahidə olunur. Diqqət etdinizsə, prezidentlərin mətbuat konfransında Ərdoğan müzakirə olunan xarici məsələlər sırasında əsasən Suriya-Bəşər Əsəd problemi, Fələstin problemi olduğunu bildirdi. Əsəd Ərdoğanın şəxsi düşmənidir. Ona görə də, göründüyü kimi, daha çox bu məsələni Putinin qarşısında qaldırıb. Qarabağ məsələsi isə kəskin şəkildə qoyulmur, ötəri olaraq toxunulub".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 296 (6005) 4 dekabr 2014

**3 dekabr tarixə həm də "soyuq müharibə"nin başa çatdığı təqvim kimi düşüb. 1989-cu il dekabrın 2-3-də Aralıq dənizinin Malta adasında SSRİ-nin rəhbəri Mixail Qorbaçov və ABŞ prezidenti Corc Buş (ata) arasında "Maksim Qorki" gəmisində görüş keçirilir. İki gün sürən danışıqlardan sonra dekabrın 3-də SSRİ və ABŞ liderləri "soyuq müharibənin" rəsmən başa çatdığını bəyan etdilər. İmzalanan sazişdə artıq ABŞ və SSRİ-nin bir-birini antaqonist dövlətlər hesab etmədiyi, aralarında düşmənçilik dövrünün başa çatdığı yazılırdı.**

# "Budəfəki "soyuq müharibə"ni uduzan da Moskva olacaq"

## SSRİ və ABŞ liderlərinin "soyuq müharibə"nin başa çatdığını elan edən Malta görüşündən 25 il ötür; **Zəfər Quliyev:** "Rusiya bu potensialla uzun müddət "soyuq savaş" apara bilməz..."

Malta görüşündən 25 il keçib və SSRİ-nin varisi olan Rusiya ilə Qərb arasında yenidən qarşıdurma başlayıb. Artıq Rusiya prezidenti Putin baş verənləri növbəti "soyuq müharibə" adlandırıb. Cəmi 25 illik fasilədən sonra dünya ikinci böyük qarşıdurmanı yaşayır.

**Politoloq Zəfər Quliyevin** sözlərinə görə, "soyuq müharibə"nin praktiki sonu SSRİ-nin dağılması ilə bağlı olsa da, Malta bəyannaməsi formal olaraq SSRİ-Qərb qarşıdurmasının başa çatdığı gündür: "Soyuq müharibə"nin faktiki olaraq başa çatması 1991-ci il, yəni SSRİ-nin rəsmən dağılması tarixidir. Ancaq "soyuq müharibənin" ideoloji sonu məhz 3 dekabr 1989-cu ildə baş verdi. Malta görüşündən sonra Buşla Qorbaçov keçirdikləri mətbuat konfransında bütün dünyaya elan etdilər ki, biz artıq rəqib deyilik. Bundan bir ay əvvəl, 1989-cu ilin noyabrında Berlin divarı söküldü. Rəmzi olaraq bu hadisə iki qütb arasında qarşıdurma olmadığını göstərirdi, yəni daş divarlarla yanaşı, beyinlərdəki divarlara artıq ehtiyac yoxdur".

**Maraqlıdır ki, ötən ay Avstraliyada G-20 sammitindən sonra Putin Qərb dövlətlərinin Rusiyaya qarşı "soyuq müharibə" apardıqlarını deyib. Yəni artıq liderlər də "köhnə dövrün" geri qayıtdığını etiraf edirlər. Z.Quliyev bir çox parametrlərinə görə yeni Qərb-Rusiya qarşıdurmasının artıq başladığı qənaətindədir:** "25 ildən sonra Rusiya ilə Qərb arasında növbəti gərginlik müşahidə olunur. Həm Putin özü buna işarə edir, həm də ekspertlər qeyd edirlər ki, artıq dünyada növbəti "soyuq müharibə" başlayır. Bəziləri artıq bu savaşın başladığını, bəziləri isə başlamaq ərəfəsində olduğunu deyirlər. Ancaq real olaraq deyə bilərik ki, daha bir "soyuq müharibə" faktiki olaraq başlayıb. Rusiyanın rəsmi təbliğatı, telekanallar, mətbuat, o cümlədən prezidentdən başlamış siyasi elitanın ritorikası ona yönəlib ki, Qərb, ilk növbədə ABŞ düşməndir. Bu, faktiki olaraq "soyuq müharibə" ritorikasıdır".

**Ancaq ekspertə görə, 25 il əvvəl başa çatan "soyuq müharibə" zamanı indikindən fərqli olaraq SSRİ daha güclü və böyük potensiala malik olan dövlət idi, Rusiya isə bir sıra parametrlərinə görə SSRİ-ni əvəz edə bilməz:** "İlk "soyuq müharibə" ona görə 40 ildən artıq davam etdi ki, SSRİ-nin böyük bir potensialı var idi. Həm ideoloji baxımdan tamamilə başqa bir dünya idi. Kommunist ideologiyası ilə silahlanmış, böyük əraziyə malik dövlət idi. SSRİ-nin öz ərazisi və buna əlavə olaraq sosialist düşərgəsi ölkələri vardı. SSRİ-nin özünün iqtisadi və hərbi bloku vardı. Demək olar ki, totalitar, ancaq eyni zamanda tam olaraq hər şeyə nəzarət edən bir dövlət idi. Uzun müddət, 40 ildən çox SSRİ Qərb dünyasına, Şimal Alyansına qarşı təkbətək vuruşurdu. O zaman yer üzündəki bütün lokal münaqişələrdə bir tərəfdə Moskvanın, o biri tərəfdə Vaşinqtonun əli vardı. İkiqütblü bir dünya idi. İndiki Rusiya isə nə iqtisadi, nə də siyasi cəhətdən SSRİ-ni əvəzləyə bilir. İdeoloji cəhətdən isə ümumiyyətlə, Rusiyanın kommunist ideologiyasına qarşı ortaya qoyduğu bir ideologiya yoxdur. Bu səbəbdən də Rusiya bu potensialına görə "soyuq müharibəni" uzun müddət apara bilməz. Bunun üçün hərbi potensialı da böyük deyil. Faktiki olaraq heç yarım il keçməyib, Qərbin tətbiq etdiyi sanksiyalar nəticəsində Rusiya iqtisadiyyatı, valyuta çöküb. Bunun üçün hərbi potensialı o qədər deyil".



**Politoloq deyir ki, 25 il əvvəl başa çatan "soyuq müharibə" həm də bu gün üçün ibrətdir. Rusiya liderləri SSRİ-Qərb qarşıdurmasının nəticələrindən ibrət götürməlidir:** "25 il əvvələ dönüb baxanda "soyuq müharibənin" acı nəticələrini xatırlamalıyıq. Kreml dərk etməlidir ki, o qədər güc qarşısında SSRİ "soyuq müharibəni" uduzdu. Hər kəs bilir ki, "soyuq müharibənin" başa çatması SSRİ-nin məğlubiyyəti ilə yadda qaldı. Kreml anlamalıdır ki, bu dəfə də uduzan tərəf Moskva olacaq. Rusiya hegemon siyasətindən əl çəkməli, hansısa formada Qorbaçovun apardığı siyasətə qayıtmalıdır".

❑ **KƏNAN**

# İnternat məktəblərində böyüyən istedadlar

## Təhsil Nazirliyi iki internat məktəbinə səfər təşkil etdi; əməkdaşımız Buzovna və Bilgəhdəki məktəblərdə olan şəraitdən yazır...

**Dekabrın 3-də Təhsil Nazirliyi 8 nömrəli sanatoriya tipli internat və 11 saylı inteqrasiya təlimli internat məktəblərinə səfər təşkil etdi. Səfərdə media nümayəndələri ilə yanaşı, QHT təmsilçiləri, bəstəkar Faiq Sücəddinov və müğənni İlqar Muradov da iştirak edirdi.**

Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov səfərin təşkilində məqsədin media nümayəndələrini internat məktəbləri ilə daha yaxından tanış etmək və burada təhsil alan və yaşayan uşaqlarla yaxından təmas qurmağa şərait yaratmaq olduğunu bildirdi.

**Beləcə, öncə Buzovna qəsəbəsindəki 8 nömrəli sanatoriya tipli internat məktəbinə baş çəkdik. 2012-ci ildə təmir olunmuş bu internat məktəbi olduqca səliqəli və təmiz görünürdü. Məktəblə daha yaxından tanış olmadan öncə məktəbin direktoru Nizaməddin Məmmədov məktəb haqda qısa məlumat verdi. Məktəbdə 291 şagirdin təhsil aldığını deyən Məmmədov buranın 1963-cü ildən fəaliyyət göstərdiyini bildirdi:** "Burada 6-16 yaşlı uşaqlar təhsil alır. Onlardan 190 nəfəri daimi burada qalır. Hər birinin valideyni var. 15 sinif olan bu məktəbdə uşaqların təlim tərbiyəsi ilə 58 müəllim məşğul olur. Burada qalan uşaqlar qüsurlu uşaqlar deyil. Sadəcə, səhhətlərində vərəmin ilkin və sönmüş forması var. Onlar burada təhsillə yanaşı, həm də müalicə alırlar".

Söhbətə qatılan təlim tərbiyə üzrə direktor müavini Qəni Mehdiyev burada səhhətləri ilə əlaqədar olaraq uşaqlara xüsusi qayğı ilə yanaşıldığını bildirdi, məktəbi bitirən uşaqları müxtəlif peşə məktəblərinə və digər təhsil sahələrinə yönəltdiklərini dedi.

İnternat məktəbi haqda qısa məlumat aldıqdan sonra otaqlarla tanış olmağa başladıq. İlk baş çəkdiyimiz otaq əmək kabineti oldu. Burada uşaqlar tikmə, toxuma ilə məşğul idilər. Parça üzərində müxtəlif naxışlar çəkib tikən bir qızcığaz diqqətimizi çəkdi. 8-ci sinif şagirdi olduğunu deyən Səriyyə Həsənova internatın onun üçün maraqlı olduğunu və müəllimlərin də mehriban olduğunu söylədi. Oğlanlar üçün ayrılmış əmək kabinetində isə uşaqlara ustalıq işini öyrədirdilər.

Bəstəkar F. Sucəddinovun "uşaqlar başqa məktəbə getmədən burada öyrəndikləri ilə gələcəkdə usta işləyib özlərini təmin edə bilərmi" sualına müəllim bunun mümkün olduğunu dedi. Daha sonra məktəbin kitabxanası, idman zalı, yeməkxanası, yataq otağı ilə də tanış olduq. Elə bu internat məktəbini bitirib təhsil aldıqdan sonra yenidən həmin internatda işləmək üçün qayıdan tarix müəllimi **Orxan Mehdiyev** internat və uşaqlar haqqında danışarkən sanki illər əvvələ öz uşaqlığına qayıdırdı: "Burada böyüyən uşaqlar çox həssas və kövrək olur. Bu uşaqların keçirdiyi hər bir hiss mənə tanışdır".

**İnternatın yeməkxanasında isə yemək bişirilmə prosesi gedirdi. Yemək bişirənlərin hər biri tələblərə uyğun olaraq gigiyenik qaydalara riayət edirdilər. C.Valehov burada vahid qida rejiminin olduğunu dedi:** "Əvvəlki dönəmlərdə internat məktəblərində bəzən uşaqların qidasında müəyyən problemlər olurdu. Ancaq ötən dərs ilindən başlayaraq vahid qida rejiminə uyğun qida rasionunun təşkil olunması, eləcə də uşaqların xəstəliklərinin tipinə uyğun olaraq qidalandırma rejiminin tətbiq olunması ciddi olaraq tətbiq olunmağa başladı. Bu internat məktəbində mətbəxdəki təchizatı xüsusi olaraq tenderdə qalib gəlmiş şirkətlər edir. Yəni yemək bişirmək üçün şəxsləri direktor təyin etmir. Onlar Avropada, Rusiyada təlim keçmiş insanlardır".

**Daha sonra Bilgəhdəki 11 saylı inteqrasiya təlimli internat məktəbinə baş çəkdik. Burada isə vəziyyət fərqli idi. Sonuncu dəfə 10 il əvvəl təmir olunan məktəbdə istilik sistemi də yox idi. Məktəbin yanvar ayında təmirə bağlanacağını deyən direktor Gülnarə Abdullayeva buranın ilk inteqrasiya tipli məktəb olduğunu bildirdi:** "Burada 1031 uşaq təhsil alır. Onlardan 208 nəfəri xüsusi qayğıya ehtiyacı olan uşaqlardı. Xüsusi qayğıya ehtiyacı olan uşaqlardan evə gedənləri də var, daimi burada qalanları da. Uşaqlarımızın da nailiyyətləri göz önündədir. Təkəlduz kimi çətin tikişi bacaran uşaqlar var. Ancaq mənim Təhsil Nazirliyindən bir xahişim olacaq. Burada təhsil alan uşaqlar ağ attestat aldıqları üçün bir pillə yuxarı təhsil ocağına gedə bilmirlər. Onların bu məsələni həll etmələrini xahiş edirəm. Onlar qüsurlu olmalarına baxmayaraq çəkdikləri rəsmlərlə, tikdikləri tikmələrlə, ifa etdikləri musiqilərlə sağlam uşaqlardan heç də geri qalmırdılar".







Yekunda isə bəstəkar F.Sucəddinov buradakı uşaqların çox istedadlı olduğunu bildirərək onlara uğurlar arzuladı. Daha sonra müğənni İlqar Muradov çox kövrəldiyini söylədi, uşaqlara qayğı göstərən bütün qurumlara təşəkkür etdiyini bildirdi. Sonda Beynəlxalq Əlillər Gününə təsadüf edən səfər zamanı qonaqlar uşaqlarla birlikdə nahar etdilər.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az



YENİ MÜSAVAT
N 296 (6005) 4 dekabr 2014

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Amerikanın Qarabağ məsələsində ikibaşlı oyun cəhdi...

## Birləşmiş Ştatların rəsmiləri münaqişənin sülh yolu ilə həllinə çağırır, amma separatçılara dəstək verir: Bahar Muradova: “Azərbaycan ABŞ-a qəti şəkildə etiraz edir”

**Amerika Birləşmiş Ştatlarının son zamanlar Qarabağ məsələsində ikibaşlı oyun oynadığı nəzərə çarpır. ABŞ rəsmiləri bütün bəyanatlarında Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, Qarabağ münaqişəsinin tezliklə həll edilməsini istədiklərini deyirlər. Xüsusilə avqust ayının əvvəllərindəki üçgünlük müharibə, noyabrın sonunda erməni helikopterinin Azərbaycan Silahlı Qüvvələri tərəfindən vurulması ABŞ-ı, o cümlədən beynəlxalq təşkilatları, belə demək mümkünsə, silkələdi.**

Onlar Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək üçün mümkün bütün variantlara, o cümlədən hərbi yola əl atmaq əzmini gördükdən sonra sülh çağırışlarını çoxaltmağa, tərəfləri danışıqları intensivləşdirməyə, nəticəyə nail olmağa səsləməyiblər. Ancaq eyni zamanda erməni işğalçılarına zəbt etdikləri Azərbaycan torpaqlarından çıxmaları barədə konkret tələb qoymurlar. Hansı ki, münaqişənin sülh yolu ilə yeganə həlli budur. Bu azmış kimi, separatçılara açıq dəstək də verilir.

Hətta bugünlərdə “Dağlıq Qarabağ Respublikası”nın “parlament sədri” Vaşinqtonda, ABŞ Konqresində bir neçə konqresmenlə görüşüb, onlarla ABŞ və qondarma rejim arasında əlaqələrin genişləndirilməsi, eləcə də bir sıra sosial-iqtisadi layihələrin həyata keçirilməsi məsələsini müzakirə edib. Bundan əlavə, ABŞ Konqresində qondarma rejimin “müstəqilliyinin 23-cü ildönümü”nə həsr olunmuş təntənəli tədbir təşkil edilib. Tədbirdə konqresmenlər, separatçı rejimin və erməni diasporunun nümayəndələri iştirak ediblər.

Azərbaycanın buna reaksiyası çox sərt olub. “ABŞ-ın Dağlıq Qarabağın separatçı rejiminə qucaq açması beynəlxalq hüququn prinsiplərini pozaraq ölkələrin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş cəhdlərə dəstək kimi qəbul olunur. Bu, Dağlıq Qarabağ probleminin içində olan və onun həllinə cəlb olunmuş ölkə kimi ABŞ-ın bitərəf mövqe tutacağına inamı heçə endirir”. Bunu "Trend"ə açıqlamasında Milli Məclis sədrinin müavini Bahar Muradova deyib.

**Milli Məclis sədrinin müavini bildirib ki, Azərbaycan buna qəti şəkildə etiraz edir:** “Çünki ABŞ Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə yaradılmış ATƏT-in Minsk Qrupunun həmsədridir. Həmsədr kimi isə onun mandatına daxil olan vəzifələr var. Üstəlik, çox böyük və bütün dünyada bir çox məsələləri özünün səlahiyyət dairəsinə aid edən dövlət kimi belə bir addım atması heç cür təqdir oluna bilməz. Tanınmamış separatçı rejimin "rəhbərləri"nin ABŞ parlamentində yüksək səviyyədə qəbul edilməsi, Minsk Qrupunun həmsədri Ceyms Uorliklə və ayrı-ayrı konqresmenlərlə görüşlərin keçirilməsinə şərait yaradılması ABŞ-ın Minsk Qrupunun həmsədri kimi mövqeyini çox ciddi şübhə altına alır".

**Vitse-spikerin fikrincə, separatçı rejimlərə belə “selektiv” münasibət sərgilənməsi ABŞ-ın və onun müvafiq qurumlarının mövqeyinin heç də birmənalı olmadığını göstərir:** “Eyni problemə beynəlxalq aləmdə "selektiv" münasibət göstərilməsi digər oxşar hərəkətlərə rəvac verilməsinin mümkünlüyünə işarə kimi qəbul edilə bilər. Şəxsən mən Azərbaycan parlamentarisi olaraq buna öz ciddi etirazımı bildirir və hesab edirəm ki, ABŞ Koqresinin rəsmiləri, müvafiq qurumları, xarici siyasət idarəsinə rəhbərlik edən şəxslər bu məsələ ilə bağlı təcili açıqlama verməlidirlər. Belə bir addım hansı səbəbdən atılır? Bu hərəkətə bir izah verilməlidir!"

**B.Muradova qeyd edib ki, bununla bağlı yəqin ki, Azərbaycan dövlətinin etirazı rəsmi mövqe ilə ifadə olunacaq, lakin daha maraq doğuran məsələ ABŞ-ın hansı mövqe bildirəcəyidir:** “Əminəm ki, bizim rəsmi mövqeyimiz bu hərəkətləri heç zaman müsbət qarşılaya bilməz və öz kəskin etirazını açıq şəkildə bildirəcək. Ümumilikdə, bizim mövqeyimiz aydındır. Bizim bütün cəmiyyətimiz, siyasi partiyalar, parlamentimiz bu məsələyə öz münasibətini bildərəcək. Maraqlı olan ABŞ-ın mövqeyi, onun gündəlik mövqeyini bəyan edən sözçülərinin açıqlayacağı məsələlərdir. Onlar buna necə izahat verirlər? Nəyə görə belə bir addım atılır? Ukrayna ərazisində baş verən hadisələrə, oradakı separatçı rejimlərə qarşı bir mövqe tutulur, lakin Dağlıq Qarabağ məsələsində tamamilə başqa bir mövqe sərgilənir. Bu, ikili standartdan xəbər vermirmi? Fövqəlbəşər bir dövlətin dünyanı narahat edən, ölkələrin ərazi bütövlüyünü, suverenliyini və beynəlxalq hüququn prinsiplərini ayaq altına alan məsələlərə bu şəkildə münasibət bildirməsi ermənilərin beynəlxalq ictimaiyyətin, o cümlədən ABŞ-ın "ərköyün uşağı" qismində olmasını göstərmirmi? Mənim üçün çox maraqlıdır ki, ABŞ-ın rəsmi dairələri bu məsələyə necə izahat verəcəklər? Ümumilikdə, beynəlxalq aləmdə bir çox məsələlərə viza rejimi, iqtisadi və başqa yönümlü sanksiyalarla münasibət bildirən ABŞ nədən separatçı rejimin "rəhbərləri"nə qucaq açır, onları ən yüksək səviyyədə dövlət orqanlarında qəbul edir, üstəlik, Konqresdə separatçı rejimin yaradılmasının ildönümünün bayram edilməsinə icazə verir? Göz yumur yox, məhz icazə verir, onlara şərait yaradır. Biz buna qəti şəkildə etirazımızı bildiririk!"

Bu arada ABŞ Dövlət Departamenti sanki balans yaratmaq üçün bir açıqlama da verib. ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Mari Harf Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Vaşinqtonun mövqeyinin dəyişməz qaldığını bildirib.



APA-nın xəbərinə görə, M. Harf Ermənistanın ABŞ-dakı səfirliyinin Dağlıq Qarabağdakı separatçı rejimin “müstəqilliyi” ilə əlaqədar keçirəcəyi qəbula dair sualı cavablandırıb. O deyib ki, ABŞ Konqresində bu cür qəbullar və görüşlərin keçirilməsi mümkündür, lakin dövlətin bu məsələdə mövqeyi dəyişməyib və ABŞ münaqişənin həllini tapmaqda tərəflərə kömək etməyə çalışır.

***

**Mövcud durumda bir məqam da diqqəti cəlb edir. Təbii ki, Amerikada Azərbaycana qarşı haqsız mövqeyin müharibə ilə nəticələnə biləcəyini dərk edənlər də var. Bundan narahat olan qüvvələr də var. Məsələn, “Foreign Policy Journal”ı yazır ki, Ermənistan-Azərbaycan münaqişəsi regionu gərginlik ocağına çevirə bilər.** “On illərdir bir çox ölkələrin diqqəti Azərbaycana yönəlib ki, bu da onun əlverişli coğrafi mövqeyi və zəngin təbii sərvətləri ilə bağlıdır”. "Trend"in məlumatına görə, bu barədə Yekaterina Şakdamın “Foreign Policy Journal”ın saytında dərc olunan məqaləsində deyilir: “Azərbaycan regionda elə bir təsirə malikdir ki, bir çox analitiklər Bakının yürütdüyü xarici siyasətin yekunda regiona əhəmiyyətli təsir göstərəcəyini iddia edirlər”.

Y.Şakdam hesab edir ki, Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində vəziyyətin son zamanlar gərginləşməsi fonunda Cənubi Qafqaz regionu gərginlik ocağına çevrilə bilər.

**Məqalədə analitik Fərid İsmayılzadənin sözlərinə yer verilir:** “Azərbaycan və Ermənistan arasında münaqişəyə iri regional dövlətlər cəlb oluna bilər. Dağlıq Qarabağ münaqişəsi geosiyasi rəqabətin əsiridir və buna İrəvan və Bakıdan əlavə bir çox oyunçular cəlb olunub”.

**Məqalə müəllifi yazır ki, həqiqətən də Rusiya, İran, Türkiyə, ABŞ və Aİ-nin Azərbaycanla bağlı geosiyasi maraqları var:** “Noyabrın 28-də Azərbaycan Müdafiə Nazirliyi yaydığı rəsmi bəyanatda Ermənistanın hərəkətlərini, o cümlədən atəşkəs rejiminin daim pozulmasını qınayıb”.

**Y.Şakdam qeyd edib ki, Azərbaycan münaqişənin sülh yolu ilə nizamlanmasına sadiqdir, lakin Bakı xəbərdarlıq edir ki, ərazisinə istənilən müdaxilələrə cavab verəcək:** “Azərbaycan və Ermənistan arasında gərginliyin artması nəzərə alınmaqla, ekspertlər xəbərdarlıq edirlər ki, əldən verilmiş vaxt regiona baha başa gələ və münaqişəyə dünya dövlətləri cəlb edilə bilər”.

**Materialda iranlı politoloq Möhsün Kiyanın sözlərinə istinad da edilir:** “Necə ki, Suriya dünya dövlətlərinin maraqlarının toqquşduğu yerə çevrilib, Cənubi Qafqazda müharibə də region ölkələrinin qarşıdurmasına səbəb ola bilər”.

**Y.Şakdam yazır ki, Ankara Bakının sadiq müttəfiqidir:** “Türkiyə 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olub və həmin vaxtdan etibarən Türkiyə Azərbaycana siyasət, iqtisadiyyat və müdafiə sahələrində fəal dəstək verib”.

**Məqalədə daha sonra vurğulanır:** “İsmayılzadə hələ 2005-ci ildə qeyd edirdi ki, Azərbaycan və Ermənistan Şərq və Qərb, postsovet ölkələri və İslam dünyası arasında körpü rolunu oynayan regionun hissəsidir. Bu, çox vaxt regionda bir sıra ölkələrin maraqlarının toqquşmasına gətirib çıxarır. Nəticədə Dağlıq Qarabağ münaqişəsi həll edilməmiş qalır”.

**Müəllif hesab edir ki, F.İsmayılzadənin vəziyyətə verdiyi qiymət bu gün də ədalətlidir:** "Suriya, İraqdakı hadisələr, Əfqanıstanda “Taliban” hərəkatının fəaliyyətinin aktivləşməsi fonunda radikal islamçılar Ermənistanın Azərbaycana qarşı təcavüzündən istifadəyə cəhd edə bilərlər. Bu məqsədlə radikal islamçılar cihad üçün onu yeni platforma qismində istifadə edə bilərlər".

Müəllifin sözlərinə görə, Ermənistan və Azərbaycan arasında gərginlik azalmasa, region çox güclü çarpaz atışmaya məruz qala bilər...

***

**Mövcud situasiya ilə bağlı danışan Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu qeyd edib ki, ABŞ-ın Ermənistandakı səfiri Con Heffernin helikopterin vurulmasından sonrakı dövrdə yaydığı açıqlamalar tamam dəhşətdir:** “ABŞ səfiri Ermənistan nazirlərinin görə bilmədiyi işi görüb. ATƏT-in Minsk Qrupunun iki bəyanatı onun öz etirafına görə səfir C.Hefferinin əməlidir. ABŞ Dövlət Departamentini bu mövzuda daim ayaq üstə saxlayan da C.Heffern olub. O, Ermənistan rəhbərliyinin məqsədinə çatması üçün əlindən gələni edib. Həmin dövrdə diqqətçəkən şübhəli daha iki hadisəsi var. Helikopter insidenti ilə təxminən eyni vaxtda Ermənistan müdafiə naziri S.Ohanyan nazirliyinin Mərkəzi Klinik hərbi hospitalın reanimasiya şöbəsinə yerləşdirilən iki erməni hərbçisinə baş çəkdi. Bu erməni hərbçisinin yaralanma şəraiti barədə heç bir məlumat verilmədi. Fransadan ABŞ-a yola düşən qondarma qurumun "prezidenti" B.Saakyan Vitalik Poqosyan adlı hərbçini ölümündən sonra mükafatlandırdı. Son vaxtlar Ermənistanda hərbçilər öldükdən sonra onları mükafatlandırırlar. V. Poqosyanın nə vaxt və hansı şəraitdə öldürülməsi barədə heç bir məlumat yoxdur. Hərbi saxtakarlıqlar, hərbi itkilər barədə məlumatın gizlədilməsi də Ermənistan rəhbərliyinin öz erməniləri və diaspor erməniləri qarşısında vəziyyəti gizlətməsi üçündür".

### “Rusiya Ermənistandan üz döndərib”

**Erməni deputat Xaçatur Kokobelyan isə erməni lobbisinin Amerikaya yalvarmasının sirrini açan açıqlama verib:** “Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) Ermənistanın təhlükəsizliyinin təmin olunması üçün heç nə etməyib”.

Azvision.az-ın erməni KİV-nə istinadən verdiyi məlumata görə, bu barədə Ermənistan parlamentinin iclasında çıxışı zamanı müxalifətdən olan deputat, qarbyönümlü “Azad Demokratlar” partiyasının lideri Xaçatur Kokobelyan bildirib.

**Onun sözlərinə görə, bunu 2014-cü ildə Qarabağda baş verən hadisələr də təsdiqləyir. Erməni deputatın sözlərinə görə, nə noyabr ayında vurulan helikopter zamanı, nə də iyul-avqust aylarında sərhəd baş verənlər zamanı Rusiya və ya KTMT bəyanatlarla çıxış etmədi:** “Biz KTMT-nın üzvüyük. Bu üzvlüyün bizə nə verdiyi barədə düşünün. Bundan sonra Rusiya Ermənistan maraqlarının qarantıdır demək lazım deyil”.

Qeyd edək ki, bu günlərdə Ermənistan parlamentində ölkənin Avrasiya İqtisadi İttifaqına qoşulmasına dair dinləmələr gedir.

Ermənistanın Avrasiya İqtisadi İttifaqına qoşulması barədə saziş oktyabrın 10-da Minskdə Ali Avrasiya İqtisadi Şurasının iclasında imzalanıb.

Avrasiya İqtisadi İttifaqının yaradılması barədə saziş Rusiya, Belarus və Qazaxıstan prezidentlərinin may ayının 29-da Astanada keçirdiyi görüş zamanı imzalanıb.

Müqavilə quruma üzv ölkələrin ərazisində malların, xidmətlərin, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkətini nəzərdə tutur...

***

Baş verənlərdən hasil olan nəticə budur ki, Ermənistan artıq Rusiyaya bel bağlamır, onlar bu dəfə hansısa bir yolla Amerikanın qoltuğuna sığınmaqla düşdükləri nokaut vəziyyətindəm çıxmağa çalışırlar. Təəssüflər olsun ki, ABŞ-da işğalçılara qucaq açanlar da tapılıb. Amma heç şübhəsiz ki, proseslərin sonunda Amerika nə qədər yanlış bir addım atıldığının fərqinə varacaq. Əgər Amerika gerçəkdən regionda sabitliyi istəyirsə, ermənilərə loyal yox, çox sərt münasibət göstərməlidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI

YENİ MÜSAVAT
N 296 (6005) 4 dekabr 2014

# Qaraçuxur məscidini yandıran PKK-çılar haqda müdhiş faktlar

## "Yekbun"çuların aksiyalar keçirmək, Bakını qarışdırmaq planları olub; anası oğlundan imtina edib: "İstərdim ona güllələnmə versinlər"









**Bakıda Qaraçuxur məscidini yandıranlar barəsində yeni xəbərlər gəlməkdədir. Axar.az-ın yazdığına görə, onların İraqın ölkəmizdəki səfirliyi qarşısında etiraz aksiyaları keçirmək planı olub. Bu aksiyalarda qarışıqlıq salmaq nəzərdə tutulub.**

Qaynağın sözlərinə görə, PKK-nın Azərbaycandakı "Yekbun" təşkilatının həmtəsisçiləri Namiq Nəsibov və Elnur Ələkbərov ətrafındakı kürdlərlə etiraz nümayişləri keçirmək niyyətində olublar.

Onlar bu aksiyaları təşkil etməzdən əvvəl isə Qaraçuxur məscidini yandırmaq, diqqəti yayındırmaq planı cızıblar. Mənbənin sözlərinə görə, "Yekbun"çular məscidi yandırmaqla ibadət evində İŞİD tərəfdarı olan qüvvələrin namaza gəldiyini nəzərə çatdırmaq istəyiblər.

Çünki hazırda Kobanidə PKK və İŞİD arasında amansız savaş gedir. N.Nəsibov da Suriyadan qayıtdıqdan sonra planlaşdırdığı təxribatı həyata keçirməyə cəhd göstərib. Onun təsis etdiyi təşkilat "Yekbun" isə yeni yaranıb və rəsmi qeydiyyatdan keçməyib.

Bu təşkilatın adı kürdcədən tərcümədə "Birlik" deməkdir. Amma bu "birlik" 5-10 nəfərdən ibarət olub. Artıq onların facebook-da yaratdığı "Yekbun" səhifəsi də ləğv edilmiş sayılar. Səhifənin admini olan E.Ələkbərov həbs edildikdən sonra adı oradan çıxarılıb.

Milli Təhlükəsizlik Nazirliyinin yaydığı rəsmi məlumatda da qeyd olunub ki, onlar aksiya keçirmək istəyiblər. Lakin bu, baş tutmayıb. Mənbə qeyd edir ki, məscid tamamilə yansaydı və aksiyalar baş tutsaydı, onlar Bakıda böyük qarışıqlıq salmağa nail olacaqdılar. Amma hüquq-mühafizə orqanları tədbirli tərpənib.

Vaxtilə "Ronahi" Mədəniyyət Mərkəzinin sədr müavini olmuş N.Nəsibovun həbsi əslində gözlənilən idi. O, fikirlərinə və mövqeyinə görə müavinlik vəzifəsindən çıxarılmışdı, bir müddət əvvəl isə paytaxtda PKK lideri Abdulla Öcalanın şəkli olan köynəkdə şəkil çəkdirdiyi üçün saxlanmışdı.

Sadəcə, Milli Məclis PKK-nı terror təşkilatı kimi tanımadığına görə məsuliyyətə cəlb edilməmişdi. N.Nəsibovun Suriyaya getməsi və qayıtdıqdan sonra "Yekbun"u təsis etməsi radikallığına təsir edib.

***

PKK-çı gəncin məscid yandırmasına görə ailəsi də ondan imtina edib. "Bütün nəslimiz ondan imtina edib. İstərdim ona güllələnmə versinlər". Bunu azvision.az-a açıqlamasında N.Nəsibovun anası Nailə Nəsibova deyib.

N.Nəsibovanın sözlərinə görə, oğlu içki aludəçisi olub: "Onun vəkilinə də demişəm ki, bu adam xəstədir. Bakı şəhərinin bir neçə ərazisində Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında çalışıb. Hər yerdən içki içdiyi üçün qovulub. O da atası kimi şəhid olaydı, bilərdim ki, evimdə iki şəhid şəkli var. Həmişə deyirdi ki, kürdəm.

Bizim ata-babadan pasportumuzda kürd sözü yoxdur, biz Azərbaycan vətəndaşıyıq. O, içki aludəçisi olub. Psixoloji vəziyyəti də normal səviyyədə olmayıb. Dispanser həkiminin reseptini vəkilə təqdim etmişəm. Psixi dərmanlar atırdı. Bu il ona şəxsi həkim tutmuşdum. Onun daxilinə cərrahi yolla arağa qarşı kapsul qoydurmuşam".

**N.Nəsibova bildirib ki, oğlunu bir il öncə polisə müraciət edərək tutdurub. Onun sözlərinə görə, polis oğlunu bir həftə saxlayandan sonra sərbəst buraxıb:** "İki dəfə şikayət edib onu tutdurmuşam. Bildirmişəm ki, bu harasa qoşulubsa, araşdırılsın, onunla bağlı iş qaldırılsın.

Kürdüstan bayrağı ilə İraqa kimin vasitəsilə və niyə getdiyindən xəbərim olmayıb. Bir il bundan qabaq ondan imtina etmişəm. Övladımın törədə biləcəyi əməlləri qabaqcadan bilərək polisə məlumat vermişəm. Polis orqanları isə ona qarşı vaxtında sərt tədbir görməyib. İndi məscid yandırıb. Yaxşı ki, daha böyük terror törətməyib".

***

Bu hadisədən sonra ölkədə insanlar arasından terror xofu yaranıb. İŞİD-dən sonra Azərbaycanda PKK təhlükəsinin olacağı iddia edilir. Daxili İşlər Nazirliyi isə Azərbaycanda terror təhlükəsi ilə bağlı iddialara aydınlıq gətirib.

**DİN-in mətbuat xidmətinin rəis müavini, polkovnik Ehsan Zahidov azvision.az açıqlamasında bildirib ki, bu istiqamətdə müəyyən tədbirlər görülür:** "Əminliklə deyə bilərəm ki, ölkə daxilində kriminal vəziyyətə hüquq- mühafizə orqanlarımız tərəfindən tam nəzarət olunur. İctimai təhlükəsizlik nəzarətdədir. Bu istiqamətdə də tədbirlər görülür".

Xatırladaq ki, MTN tərəfindən keçirilmiş antiterror tədbirləri nəticəsində Bakı şəhəri, Binəqədi rayonunun Biləcəri qəsəbəsində həmin cinayəti törətməkdə şübhəli bilinən Azərbaycan Respublikasının vətəndaşları - Nəsibov Namiq Kamil oğlu və Ələkbərov Elnur Tahir oğlu saxlanılıblar.

N. Nəsibovun üzərindən "Makarov" tipli tapança və 8 ədəd 9 mm çaplı patron, E. Ələkbərovun üzərindən isə "Smit-Vesson" markalı revolver aşkar edilərək götürülüb.

Müəyyən edilib ki, N. Nəsibov 2014-cü ilin avqust-sentyabr aylarında Suriya gedərək oradakı döyüşlərdə iştirak edib.

**❑ E.SALAMOĞLU**

# "Rövşən Lənkəranski"ni "vuran" gizli əllər kimdir?

## "Rufo Gəncinski"nin "Ded"in qətli ilə bağlı dedikləri blef imiş; azərbaycanlı "qanuni oğru" "sxodka"dan çıxa biləcəkmi?

**Ötən həftə Rusiya hüquq-mühafizə orqanları KİV-lərə məşhur azərbaycanlı kriminal avtoritet, "Rövşən Lənkəranski" ləqəbi ilə tanınan Rövşən Canıyevin "sağ əli" kimi təqdim olunan "Rufo Gəncinski" ləqəbli "qanuni oğru" Ulfət Tağıyevin "Ded Xasan"ın öldürülməsi ilə bağlı istintaqa sensasion ifadə verdiyi barədə məlumat aranı qatıb. Həmin xəbərdə deyilirdi ki, ötən ilin sentyabrında Moskvada həbs olunan "Rufo"nun "Ded Xasan"ın qətlində əlinin olduğunu etiraf edib. Və istintaq da dərhal "Ded Xasan"ın qətlinin "Rövşən Lənkəranski" tərəfindən sifariş verildiyi versiyasını yenidən gündəmə gətirmişdi.**

Hələ o zaman da vurğulamışdıq ki, "Rufo"nun həbsi "Lənkəranski"ni yenidən hədəfə gətirmək məqsədi güdə bilər və bunda Rusiyanın hüquq-mühafizə orqanlarının da marağının olması mümkündür. Bu xəbərlərdən sonra İspaniya həbsxanasından buraxıldıqdan sonra oktyabrın 29-da Rusiyaya qayıdan "Şakro Molodoy" ləqəbli məşhur "vor zakon" Zaxari Kalaşovun yaxın vaxtlarda bütün keçmiş sovet respublikalarından olan kriminal avtoritetlərin iştirakı ilə "sxodka" keçirməyə hazırlaşdığı barədə məlumat yayılması da diqqət çəkdi. Qeyd edək ki, Rusiya və keçmiş postsovet məkanında kriminal imperiyasının lideri olmağa əsas namizəd hesab edilən "Şakro Molodoy" "Ded Xasan"ın qətlini araşdırır. O, hətta "Ded"in məzarı üstə and da içib. Rusiyaya qayıtdıqdan sonra vaxtının çox hissəsini Moskva ətrafındakı Odintsovo rayonundakı Razdori qəsəbəsindəki kottecdə keçirən "vor zakon"la görüşmək istəyənlər çoxdur. Lakin "Şakro" onların demək olar ki, hamısına rədd cavabı verir. Bildirir ki, hələ işlərlə bağlı kursda deyil və vəziyyəti öyrənir. Görüş üçün müraciət edənlərin sayının çoxluğunu nəzərə alan "Şakro" mesaj göndərib ki, tezliklə genişmiqyaslı "sxodka" keçirəcək və kriminal aləmdə cərəyan edən proseslərlə bağlı bütün məsələlərə orada aydınlıq gətirilməsinə çalışacaq.

Gözlənilir ki, bu toplantıda yüzlərlə "vor zakon" iştirak edəcək. "Sxodka"nın dəqiq vaxtı və yeri isə hələlik məlum deyil.

Kriminallar arasında əsl savaş gözlənildiyi bir vaxtda "Lənkəranski"nin "Ded Xasan"ın qətli ilə bağlı məsələdə hədəfə çıxarılması təsadüfi deyildi.

Bu məsələyə diqqətçəkən "Moskovskiy komsomolets" yazır ki, "Rufo"nun "Ded Xasan"ın öldürülməsi ilə bağlı ifadəsi şübhəlidir. Kriminal aləmin nümayəndələrinin qəzetə bildirdiyinə görə, "Rufo" doğrudan da "Rövşən Lənkəranski"yə borcludur. Çünki "Rufo"nun başına "vor" tacını 2012-ci ildə Dubayda şəxsən "Rövşən Lənkəranski" qoyub, özü də "Ded"in öldürülməsindən iki həftə əvvəl.

Amma kriminal aləmin nümayəndələri deyirlər ki, "Ded"in qətlinin "Lənkəranski" tərəfindən sifariş verilməsi daha çox polisin uydurmasıdır.(virtualaz)

Doğrudur, istintaqda "Lənkəranski"nin "Ded"dən yaxa qurtarmağın işin xeyrinə olacağı barədə telefon danışığı var. Ancaq "Rufo"nun istintaqda dediyi kimi, "Ded"i vuran killerin hadisə yerindən uzaqlaşması üçün marşrut işləyib hazırlaması versiyası tutarlı hesab olunmur. Çünki "Ded"i peşəkar killer-snayper vurub və bu cür peşəkarlar aradan çıxmaq üçün hansısa marşruta ehtiyac duymurlar. Xüsusən də "Rufo" kimi orta səviyyəli "vor" tərəfindən hazırlanmış marşruta...

Bildirilir ki, "Rufo" həbs olunandan sonra "Matrosskaya tişina" həbsxanasının xüsusi blokunda saxlanılır. O, həbs olunandan sonra istintaqa ifadə verməyib və məlumata görə, özünü dəliliyə vurub. "Rufo"nu hətta müalicə üçün psixiatrik xəstəxanaya da aparıblar.

Ehtimal olunur ki, "Rufo" özünü "Ded Xasan"ın qətlinin təşkilatçısı kimi qələmə verməklə təcridxanada saxlanılma şəraitini yaxşılaşdırmağa çalışır. Yaxud onun məqsədi istintaqı çaşdırmaqdır.

Rusiya kriminalının "xaç atası" sayılan Aslan Usoyanın qətlindən keçən 23 ayda bu işin məhz "Rövşən Lənkəranski"yə "yüklənməsində" maraqlı olan qüvvələrin ilk həmləsi deyil. Bundan əvvəl də "Lənkəranski" ilə yaxın münasibətləri olan Cemal Mikeladzenin də həbsxanadan "etiraf" məktubu yayılmışdı. Kriminal aləmdə "Cemo" ləqəbi ilə tanın Cemal Mikeladze guya hüquq-mühafizə orqanlarına yazdığı iddia edilən məktubunda "Ded Xasan"ın qətli ilə bağlı "sirləri açırdı". Məktubda iddia edilirdi ki, "Ded"lə bağlı qətl planını müzakirə etmək üçün "Rövşən Lənkəranski", Merab və Levan Canqveladze qardaşları Romada görüşüblər. Sonrakı görüşdə isə Levan Canqveladzeyə "Val" tüfəngi verilib. Mikeladzenin məktubunda qətl planının maliyyəsinin və həyata keçirilməsinin əsas fiqurantı kimi "Rövşən Lənkəranski"nin adı keçirdi. Bu məktubun məhz əsas cinayəti "Lənkəranski"yə "yükləmək" məqsədi ilə yayıldığı açıq hiss olunurdu. Sonradan məktubu "Ded" klanın ortaya atdığı barədə ciddi şübhələr vardı.



"Rufo Gəncinski"



"Rövşən Lənkəranski"

**❑ Xəbər xidməti**

YENİ MÜSAVAT
N 296 (6005) 4 dekabr 2014

# Masazırda Zərifə Əliyevanın adını daşıyan küçə bərbad haldadır

## Sakinlər deyir ki, yolun belə olmasına səbəb yaxınlıqdakı gölün qurudulmasıdır

**Abşeron rayonunun Masazır qəsəbəsindəki Akademik Zərifə Əliyeva küçəsinin sakinləri bərbad yollardan əziyyət çəkirlər. «Qəsəbənin yolları elə bir durumdadır ki, ucqar bir dağ kəndinin yolları belə buradan daha yaxşı görünür». Bu sözləri qəsəbə sakinləri musavat.com-a ünvanladıqları şikayət məktubunda qeyd ediblər.**





Şikayət əsasında adıçəkilən ünvana yollandıq. Gördüklərimiz şikayət məktubunda yazılanlardan daha pis idi. Küçədə bizi ilk olaraq, palçıq bataqlığı «qarşıladı». Yolun bir tərəfindən digər tərəfinə keçmək üçün uzunboğaz çəkmələrə ehtiyac vardı.

Yolun kənarında sakinlər tərəfindən düzəldilmiş ensiz piyada səkisi var idi. Hər kəs həmin yoldan istifadə edirdi.

**Qarşımıza çıxan qəsəbə sakinləri ilə danışdıq. Onlardan birinin dedikləri isə bizə daha maraqlı gəldi. Bir əlində təmiz ayaqqabı, ayağında isə rezin çəkmə olan bu şəxslə söhbətləşdik:** «Özün də görürsən vəziyyətimizi... Hər gün bu vəziyyətdə işə gedirəm. Ayaqqabılarımı əlimdə tuturam, küçənin sonuna kimi rezin çəkmələrlə gedirəm. Sonra ayaqqabılarımı dəyişirəm və beləcə işə gedirəm. Qayıdanda da eyni cür əziyyət çəkirəm. İşdə belə mənə gülürlər. Deyirlər ki, hər gün iki ayaqqabı ilə işə gəlməkdən bezmirsən? Təbii ki, bezirəm. Amma başqa çarəm yoxdur, dözməliyəm».

Yolumuza davam edirik və bu dəfə balaca məktəbli ilə qarşılaşırıq. Onun da ayaqlarında rezin çəkmələr, çiynində isə məktəbli çantası var idi. Palçığın içi ilə yoluna davam edirdi.

**Sakinlərin birinin sözlərinə görə, 5 ildən çoxdur ki, vəziyyət belədir:** «Mən 5 ildir ki, burada yaşayıram. Vəziyyət eynidir. Keçən bələdiyyə seçkilərində gəlib bir az yol çəkmişdilər. Onu da «Azəriqaz» dağıtdı. Sonra yenə sakinlərlə pul toplayıb, yolu düzəltdik. Bu dəfə də «Azərsu» gəlib qazdı ki, su çəkirik. Bir dəfə də düzəltsək, kanalizasiya xətləri təmir ediləcək. Çünki bu ölkədə heç bir şey sistemlə işləmir. Bir idarə iş görəndə, digərini xəbərdar eləmir. Ona görə də biri yol çəkir, biri də qazır. Əslində yol bu qədər bərbad hala düşməyəcəkdi. Buranın belə olmasına səbəb yaxınlıqdakı gölün qurudulmasıdır. Hansısa pullu şəxs, o gölü alıb qurudur. Bunun üçün də ağır tonnajlı yük maşınları hər gün bu küçədən istifadə edərək, gölə torpaq daşıyırlar. Ona görə də küçəmiz daha da bərbad hala düşüb".

**Başqa bir sakin də öz narazılığını bildirdi:** «Qardaş, bezmişik. Hər gün bu bərbad yolla maşın sürürəm. Mən birtəhər gedib-gəlirəm. Bəs maşını olmayanlar nə etsin? Hələ payızdır. Qışda daha da çox yağış, qar olacaq. O zaman ümidimiz Allaha qalacaq. Uşaqlarımız məktəbə gedə bilmir. Şəhərə gedəndə üstümüzdə dəsmal gəzdiririk ki, ayaqqabımızın palçığını təmizləyə bilək. Azərbaycanın ən ucqar rayonlarında da belə şey yoxdur. Belə küçə olar? Buranı təmir etmək üçün böyük maliyyə də lazım deyil. Qısa müddətdə həll edə bilərlər».

Çəkilişdə olduğumuz müddətdə diqqətimizi çəkən şeylərdən biri də küçənin adı yazılmış lövhənin divardan qopardılması idi. Yəqin ki, bələdiyyə nümayəndələri Akademik Zərifə Əliyevanın adını daşıyan bir küçənin belə bərbad vəziyyətdə olmasından utanıblar. Əgər utanırlarsa, lövhəni qoparmaq əvəzinə, küçəni təmir edib, o ada layiq bir hala gətirsəydilər, daha yaxşı olardı.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**





# "Dərnəgül yolu"nda körpü istifadəyə verilməmiş təmirə dayandı

## Ziya Bünyadov prospektində işlərin yekunlaşması barədə deyilənlər yalan imiş...







**İki gün öncə "Azəryolservis" ASC 2010-cu ildən yenidən qurulmasına başlanılan Ziya Bünyadov proskpektinin ikitərəfli şəkildə istifadəyə verildiyi barədə açıqlama yaydı. Ancaq əməkdaşımız dekabrın 3-də həmin yolda hərəkət edərkən məlum olub ki, bu yolun inşası zamanı da nəqliyyat sahəsinin bossları - Ziya Məmmədov, Cavid Qurbanov ənənələrinə sadiq qalıblar.**

Yeni yol istifadəyə verilməmiş, yenidən qurulmuş körpünün (*"Çermet" körpüsü*) üstünü qazıb orada yaddan çıxmış işləri görməyə başlayıblar. Hansı ki, həmin körpü təxminən 15 gün öncə tam asfaltlanmışdı. Burada nə iş görüldüyü ilə maraqlandıqda, fəhlələr dedilər ki, körpü qurularkən onun üzərində temperatur və sürüşmə əleyhinə arakəsmə rezinlərini yerləşdirməyi unudublarmış: "Təzədən qazıb həmin arakəsmə rezinləri yerləşdiririk".

Nəqliyyat Nazirliyinin gördüyü bu "keyfiyyətli" iş nəticəsində "Dərnəgül yolu"nda davamlı olaraq tıxac yaranır, eyni zamanda dövlət büdcəsinə külli-miqdarda ziyan dəyir. Bu körpünün yenidən qazılması, bərpası, təkrar asfaltlanması 10 minlərlə manat əlavə xərc deməkdir.

Bundan başqa, "Xutor" adlanan ərazidə də Ziya Bünyadov prospektini bağlayıblar, orada da təkrarən təmir-bərpa işləri aparılır.

❑ **M.MAHRIZLI**

# Neftdən də qara...



Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Bircə anlığa 24-25 il əvvəl qaynayan, coşan meydanı göz önünə gətirin. Kim tribunaya qalxırdısa sirli, o qədər də sehrli, xoşbəxt gələcəkdən danışırdı... Natiqlərin əsas istinadı da neft idi - özümüz öz sərvətimizə sahib olandan sonra dünyanın ən bəxtəvər ölkəsi olacağıq... Hətta bu eyforiya üz-üzə qaldığımız böyük faciəyə - Dağlıq Qarabağın işğalına sığal çəkirdi, böyük gücə, qüvvətə dönürdü... Elə hakimiyyət uğrunda amansız savaşa qatılanlar da oxşar vədlər verirdilər. Ən böyük qayğı neft məsələsi idi... İqtidarlar dəyişdi, bir o qədər də neftin qədri-qiyməti artdı...**

Azərbaycanda siyasi hakimiyyət də neft amilindən yararlanıb, Qarabağ olaylarına seyrçi olan Qərb ölkələrinə təsir edəcəklərinə, neftin əvəzində bu münaqişənin ədalətli həllinə nail olacaqlarına ümidli idilər. Neft müqavilələri imzalandı, sözü keçən, nüfuz sahibi ola ölkələrin əksəriyyəti Azərbaycan neftinin istehsalında iştirakçı oldular. Onların mənfəət payı da indiyəcən imzalanan bütün müqavilələrdən üstün idi.

Bütün maneələri aşıb, neft Qərbə doğru axdı, amma siyasi dividentə çevrilmədi. Dağlıq Qarabağ münaqişəsinin həlli də getdikcə unuduldu. Zamanın, tarixin dolaylarında biz neftdən asılı vəziyyətə düşdük...

Əslində belə ssenari gözlənilən idi. Bizə qədər də, hətta qat-qat çox neft ehtiyatı olan ölkələr, nefti siyasi təzyiq vasitəsinə çevirə bilməmişdilər. Əksinə, nefti olan ölkələr daim qlobal münaqişələrə hədəf oldular. Neft böyük dövlətlərin əlində siyasi bölücülük vasitəsi oldu. Nefti olan ölkələrin isə bu meydanda səsi eşidilmədi...

Dünyanın coğrafiyasına, neft ehtiyatları zəngin olan ölkələrin siyasi durumuna diqqət yetirin: bu ölkələrin, demək olar ki, heç biri neft gəlirlərini daha fundamental inkişafa, yeni texnologiyalara, öncül iqtisadiyyata yönəldə bilmədilər. Olsa-olsa, inkişaf görüntüsü yaradan dekorasiyalar quruldu - böyük şəhərlər təzədən tikildi, möhtəşəm saraylar ucaldıldı. Neft istehlakçısı olan ölkələr isə sənayenin daha üstün qurumlarına sahib durdular və ziddiyyətlər getdikcə dərinləşdi...

Əslində kimin hansı məqamda səhv etdiyinə dair çoxlu nümunələr var idi. Ən azından özündən əvvəlkilərin durumuna baxıb, Azərbaycan bu səhvlərdən yayına bilərdi. Bu baş vermədi, əksinə, nöqsanlar daha ifrat şəkildə təkrarlandı. Neftdən gəlirləri ondan asılılığı aradan qaldırmaq üçün əlverişli amilə dönmədi...

Artıq neçənci dəfədir ki, neft siyasi olayların, ziddiyyətlərin həllidə vasitəyə dönür. Ötən əsrin 70-ci illərində, 80-ci illərin sonu, nəhayət, XXI əsrdə 2008-2010-cu illərdə və indi neft siyasətin mühərrikini hərəkətə gətirdi və qlobal ziddiyyətlərin həllində ən əlverişli bir alət oldu. Bizim istəyimizdən asılı olmayaraq bu ağrını bir toplum kimi taleyimizdə sınayırıq.

Nədənsə, taleyi neftdən asılı olan ölkələr dolayısı arqumentlərlə sübut etməyə çalışırlar ki, indiki iflasın səbəblərini siyasi müstəvidən kənara çəksinlər. Amma danılması mümkün olmayan gerçək də üzdədir. Neftlə qlobal siyasət həmişə yanaşı addımlayıb. Məqamı gələndə bu balans çox böyük ustalıqla pozulub. Məhz neftdən gələn gəlirlərlə dünyaya meydan oxumaq istəyən ölkəni onun qiymətini kəskin şəkildə endirib, boğublar. Özü də elə vəziyyət yaranıb baha satan ucuz alana minnətçi düşüb...

Böyük sənaye potensialına malik olan ölkələrdə həyat əvvəlki axarı ilə davam edir - sənaye müəssisələri işləyir, yollarda maşınlar şütüyür, təyyarələr uçur, istilik, elektrik istehsal edə subyektlərin işi də dayamayıb, amma neftə olan tələbat azalıb... Sanki bu böhranlar zaman-zaman yığılan neft gəlirlərini və siyasi iddiaları puç etmək üçün düşünülmüş böyük planın tərkib hissəsidir...

İndi də yaranan çətinlikləri unutdurmaq üçün ucuz təsəlli dövriyyəyə buraxılır: gəlirlər azalsa da, bu, insanların gün-güzəranında hiss olunmayacaq, yəni pul az olanda da əvvəlki kimi yaşayacağıq. Belə vədlər ən azından gülüş doğurur. Bir o qədər də hakim dairələrdə qorxu, təşviş yaradır. Bəllidir ki, neft gəlirləri total korrupsiyanın əsas mənbəyi idi. İndi o karusel adi insanlara yönələ, olub-qalan resursları da tükəndirə bilər. Hakimiyyət dairələri yuxarı qatdakı korrupsiyanı cilovlayıb, ölkəni daha böyük fəlakətdən qoruya bilər. Bu, sonuncu güman yeridir.

YENİ MÜSAVAT
N 296 (6005) 4 dekabr 2014

# Deputatın qardaşı oğlu müəllimi öldürdü



**Şabran rayonunda piyadanın ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. APA-nın verdiyi məlumata görə, Şabran rayon sakini Süleymanov Kamran Nadir oğlunun idarə etdiyi "Mercedes" markalı avtomaşınla yolu keçmək istəyən 62 yaşlı piyadanı vurub. Xəsarət alan şəxs Şabran Mərkəzi Rayon Xəstəxanasına çatdırılsa da, onu xilas etmək mümkün olmayıb. Dünyasını dəyişən şəxsin Şabran 2 saylı orta məktəbin fizika müəllimi Fikrət Əfəndi olduğu müəyyənləşib.**

Milli.az Şabran polisindən əldə edib ki, piyadanı öldürən Süleymanov Kamran Nadir oğlu Şabran rayonundan millət vəkili seçilmiş Tahir Süleymanovun qardaşı oğludur.

Faktla bağlı Şabran Rayon Polis Şöbəsində araşdırmalar aparılır.




## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq borularının keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

## Bərdədə yol polisini yandırdılar

**Bərdədə sərxoş sürücü yol polisini yandırıb. Bərdə Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, hadisə ötən gün rayon mərkəzində qeydə alınıb. Bərdə Rayon Dövlət Yol Polisi İdarəsinin əməkdaşı Aqil Quliyev xidmət zamanı rayon sakini Elçin Ələsgər oğlu Cəfərovun idarə etdiyi "VAZ 2106" markalı avtomobili saxlayıb. İlkin araşdırma zamanı E. Cəfərovun sərxoş olduğu məlum olub və sürücü hadisə yerindən qaçıb. Bir müddət sonra sürücü evə gedərək benzin gətirib və yol polisinin üzərinə tökərək onu yandırıb. Hadisəni törədən E. Cəfərov tutulub.**

A. Quliyev ikinci dərəcəli yanıq xəsarəti ilə rayon mərkəzi xəstəxanasına yerləşdirilib.

Faktla bağlı araşdırma aparılır.Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov APA-ya bildirib ki, hadisəni törətməkdə şübhəli bilinən sürücü Elçin Cəfərov barəsində Bərdə Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 315.2-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə - sağlamlıq üçün təhlükəli üsulla) maddəsi ilə cinayət işi başlanıb, araşdırmalar davam etdirilir. Bu barədə ilk xəbəri aktual.az saytı yayıb.

## Suriyada döyüşlərdə iştirak etmiş şəxs aeroportda yaxalanıb

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudov və müavini Elçin Şirinov Milli Təhlükəsizlik Nazirliyinin (MTN) müvəqqəti saxlanma yerində və istintaq təcridxanasında monitorinq keçiriblər.**

Bu barədə APA-ya məlumat verən E. Behbudov bildirib ki, orada saxlanılan Daxili İşlər Nazirliyinin sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədovla maraqlanıblar: "Hacı Məmmədovun vəziyyəti yaxşıdır. Son vaxtlar yüngül idmanla məşğul olmağa başlayıb. Orada saxlanılan Arif Yunusla da maraqlandıq. Onun da səhhətinin yaxşı olduğunu bildirdilər".

**E.Behbudov orada saxlanılan 1985-ci il təvəllüdlü Şahbazi Behruz Bəxtiyar oğlu ilə görüşdüklərini də bildirib:** "Həmin şəxs Bakı Hava Limanında həbs edilib. Suriyada döyüşlərdə iştirak edib, Bakıya qayıdan zaman isə tutulub. Mənə bildirdi ki, ora getməyinə peşmandır. Dediyinə görə, onu din adı ilə aldadıb Suriyaya aparıblar. Lakin orada din yoxdur. Ondan soruşdum ki, orada azərbaycanlı görmüsən? Bildirdi ki, olduğu şəhərdə azərbaycanlıya rast gəlməyib".

**Hüquq müdafiəçisi orada saxlanılan Şərbətov Fərzəli Əli oğlu və Əliyev Əli Müseyib oğlu ilə də görüşdüklərini bildirib:** "Fərzəli Şərbətov İrandan Azərbaycana 41 kiloqram həşiş keçirmək istəyərkən tutulub. Özünü təqsirli bilir. Əli Əliyev isə Gürcüstandan qızıl-zinət əşyalarını qanunsuz olaraq Azərbaycana keçirmək istəyərkən tutulub. Saxlanılan şəxslərin saxlanma şəraitindən və onlara qarşı münasibətdən şikayətləri yoxdur. Ümumiyyətlə, orada saxlanma şəraiti müasir standartlara cavab verir. Bütün kameralar istilik sistemi ilə təchiz edilib. Saxlanılan şəxslər gündə üç dəfə isti yeməklə təmin olunurlar".

### Başsağlığı

**«Aquavita» firmasının kollektivi iş yoldaşları Dadaşov Eminə anası Cəmilə xanımın vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

### Elan

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon: (050) 3885035**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Kürdəmirli borcunu istəyən dostunu öldürdü

**Kürdəmir rayonunda qətl hadisəsi törədilib. APA TV-nin yerli bürosunun xəbərinə görə, hadisə Kürdəmir şəhərinin Soltan Şıxalıyev küçəsində, mərkəzi bazarın yaxınlığında baş verib. Rayonun Atakişili kənd sakini İlkin Həsənov şəxsi münasibətlər zəminində aralarında baş verən münaqişə zamanı Kürdəmir şəhər sakini Elçin Əhmədova bıçaqla xəsarət yetirib.**

Qarın boşluğunun daxilə keçən kəsilmiş-deşilmiş yarası ilə Kürdəmir Mərkəzi Rayon Xəstəxanasına çatdırılan Elçin Əhmədov orada ölüb. Hadisəni törədən İlkin Həsənov könüllü olaraq Kürdəmir Rayon Polis Şöbəsinə təslim olub. O bildirib ki, hadisə pul borcu üstündə aralarındakı mübahisə üzündən baş verib. Məlumata görə, İlkin Həsənovun öldürdüyü dostu Elçin Əhmədova pul borcu olub. Elçin dəfələrlə dostundan pulunu geri istəməsinə baxmayaraq, İlkin onun pulunu qaytarmayıb və üstəlik, onu qətlə yetirib. İlkin dostunu onu söyüşlə təhqir etdiyi üçün öldürdüyünü və buna görə peşiman olmadığını bildirib: "Ona borcum var idi, mənə yaxşılıq eləmişdi və bunu axıradək eləməli idi, pulu geri istəməli deyildi. Söyüşlə məni təhqir etdi, bıçaqla vurdum, yaxşı eləmişəm, peşman deyiləm".

Faktla bağlı Kürdəmir Rayon Prokurorluğu tərəfindən cinayət işi başlanıb.

## Bakıda körpüyə çıxıb intihar etmək istəyən şəxs həbs edildi

Bir müddət əvvəl Bakıda "Koroğlu" metro stansiyasının yaxınlığındakı körpüyə çıxaraq intihar etmək istəyən Fəqan Nəsibov saxlanılıb

**APA-nın əldə etdiyi məlumata görə, F.Nəsibov dekabrın 2-də Yasamal Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. O, Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsində nəzərdə tutulmuş cinayəti törətməkdə şübhəli bilinir.**

Qeyd edək ki, F.Nəsibov avqustun 21-də saat 11:00 radələrində intihar məqsədilə "Koroğlu" metrosuna yaxın ərazidə, Böyükşor körpüsünün üstünə çıxıb. O, Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütfəli Babayevdən şikayət edərək bildirib ki, icra başçısı onun 65 min manat pulunu mənimsəyib.

Onu Fövqəladə Hallar Nazirliyinin xilasedicilər körpüdən düşürüblər. Fəqan Nəsibov Baş Prokurorluğun əməkdaşlarına təhvil verilib. Bundan sonra F.Nəsibov baş prokuror Zakir Qaralov tərəfindən qəbul edilib.

F.Nəsibovun müraciəti baş prokuror tərəfindən nəzarətə götürülməklə şikayət ərizəsində göstərilən xüsusatların qanuna müvafiq qaydada araşdırılması üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib.



## «Nar Mobile» «Bakutel» sərgisində yeniliklərini təqdim etdi

Prezident İlham Əliyev «Nar Mobile» stendi ilə tanış oldu




**Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və yüksək rütbəli qonaq heyəti "BakuTel-2014" sərgisinin açılışında iştirak edərkən «Nar Mobile»ın stendi ilə də tanış oldu. «Azerfon» şirkətinin baş icraçı direktoru Kent Maknili, qonaqlara «Nar Mobile» stendində təqdim olunan yeniliklər barədə məlumat verdi. Cənab Maknili «Nar Mobile»ın «Bakı 2015 Avropa Oyunları» ilə tərəfdaşlığından bəhs edərək, Avropa Oyunlarının həm idman, həm də texnoloji baxımdan innovativ idman yarışları olmasını təmin etmək üçün mobil operator tərəfindən yaradılan texniki imkanlar və texnoloji yeniliklərdən bəhs etdi.**

**2-5 dekabr 2014-ci il tarixində keçirilən "BakuTel-2014" sərgisində "Nar Mobile" mobil operatorunun geniş ictimaiyyətə təqdim olunacaq bir neçə konsepsiya və məhsulları mövcuddur. Sərgi zamanı, «Nar Mobile» stendində müxtəlif yarışmalar keçirilir və yüzlərlə qiymətli hədiyyələr oynanılır. Qeyd etmək lazımdır ki, «Nar Mobile» stendi «Bakutel» 2014 sərgisində ən geniş sahəyə malik olanlar sırasına daxildir.**

**Bu il "Nar Mobile" öz stendinin dizaynına fərqli yanaşmanı tətbiq edərək, Bakı-2015 Avropa oyunlarına həsr olunmuş xüsusi oyun zonasını yaradıb. 4-gün davam edən sərgiyə gələn qonaqlar üçün müxtəlif virtual oyunları oynamaq və orada istifadə olunan texnologiya sayəsində seçdikləri oyundan asılı olaraq, özlərini real meydançada, yarış yerində və ya digər məkanda hiss etmək imkanı yaradılıb.**

YENİ MÜSAVAT
N 296 (6005) 4 dekabr 2014



# Bakının intihar "məkanları"

## Vaxtilə Qız qalası, indi də... Koroğlu körpüsü

**Son vaxtlar "Koroğlu" körpüsünə çıxıb, intihar etmək az qala dəbə çevrilib. Problemi, maddi qayğısı... olan şəxslər son çarə olaraq körpüyə çıxır və oradan özünü atacaqları ilə bağı bəyanat verirlər. Çox vaxt da problemini danışmaq üçün deputat Qənirə Paşayevanı hadisə yerinə çağırırlar.**

"Yeni Müsavat" isə xatırladır ki, əslində bu zamana qədər də Bakıda insanların intihar təşəbbüsünü həyata keçirəcəyi çox məkanlar olub. Bunlardan ən populyarı Qız qalası idi. Son olaraq bu il noyabrın 24-də qaladan Xırdalan sakini, 31 yaşlı aşpaz Yuri Qrişayev özünü ataraq intihar edib. Onun hekayəsində bir ilginc detal vardı ki, Yuri 11 yaşında olanda atası özünü Qanlı Gölə ataraq öldürüb.

Qeyd edək ki, bir necə il öncə intiharların qarşısını almaq məqsədilə Qız qalasının müşahidə hissəsinə şüşə divarlar bərkidilmişdi. Belə ki, İçərişəhər Dövlət Tarix-Memarlıq İdarəsinin sifarişi ilə Qız qalası abidəsinin baxış meydançasında şəffaf şüşə konstruksiyası quraşdırılıb. Kənardan görünməyən, eyni zamanda tarixi abidənin xarici görünüşünə xələl gətirməyən konstruksiya 1,4 metr hündürlükdə olmaqla baxış meydançasının kənarları boyu yerləşdirilib və ziyarətçilərə şəhərin mənzərəsini seyr etməyə heç bir maneə yaratmır. Konstruksiya dəyişkən hava şəraitinə, güclü küləyə davamlıdır və istənilən zaman abidəyə zərər gətirilmədən demontaj oluna bilər. Şüşə konstruksiyanın quraşdırılmasında məqsəd 28 metr hündürlüyü olan abidənin baxış meydançasına qalxmış ziyarətçilərin təhlükəsizliyini təmin etməkdir.

İntihar məkanları arasında Xəzər dənizinin də adı hallanır. Özünü dənizə ataraq intihar edənlərin də statistikası qabarıqdır. Son olaraq bu il yanvar ayının 24-də Bakının Səbayel rayonunda Dənizkənarı Milli Parkın ərazisində bir qadın intihara cəhd edib. Hadisə yerində məlum olub ki, qadını xilas etmək üçün bir nəfər kişi də özünü dənizə atıb. Onların hər ikisi batmaq təhlükəsi ilə üzləşiblər. Zərərçəkmişlər FHN-in dalğıc-xilasedicilərı tərəfindən xilas ediliblər. Maraqlıdır ki, dənizin sahilində insanları intiharlardan çəkindirəcək və ya hər hansı təhlükəsizlik tədbiri yoxdur.

Son illər həmçinin çoxmərtəbəli binalar intiharlar üçün "ideal" məkan sayılır. Bu zaman daha çox FHN-in xilasediciləri oraya gəlir, intihar fikrinə düşənləri bundan çəkindirirlər. Bu yaxınlarda Sumqayıtda 1 nəfər intihara cəhd edib. Hadisə yerində məlum olub ki, vətəndaş çoxmərtəbəli yaşayış binasının dam örtüyünə qalxaraq intihar etmək niyyətini nümayiş etdirir. Xilasedicilər tərəfindən aparılmış psixoloji söhbət nəticəsində həmin şəxs fikrindən daşınıb və təhlükəsiz əraziyə endirilərək aidiyyəti üzrə təhvil verilib.

"Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alıb, dünya üzrə mənzərəni də yada salır. Belə ki, dünyada konkret intihar etmək üçün məkanlar mövcuddur. Aokixara - yaponcadan tərcümədə "Yaşıl agaclardan ibarət düzənlik" deməkdir. Buna başqa adla "Dzükay" da deyilir. Bu da "Ağaclar dənizi" deməkdir. Meşə Yaponiyanın Xonsyu adasında, Fudzi dağının ətəyində yerləşir. Aokixara, Yaponiyanın kədərli görməli yerlərindən biridir. Bu məkanı "İntihar meşəsi" adlandırırlar. Əvvəldən meşə yapon mifologiyasına əsaslanaraq iblis, kabusların məskəni hesab olunur. Bu yer haqqında rəvayətlər hələ orta əsrlərdən bəri mövcuddur. Amma 19-cu əsrdə kasıb yapon ailələri imkansızlıqdan yedizdirə bilmədikləri yaşlı və ya uşaqlarını buraya gətirirdilər.

Aokixara Tokio əhalisi arasında "İntihar meşəsi" kimi məşhurdur. Hər il meşədə 70-100 meyit tapılır. Rəsmi olaraq polislər burada intihar edənlərin meyitlərini 1970-ci ildən axtarmağa başlayıb. Elə bu vaxtdan etibarən tapılan meyitlərin sayı hər il artır. Özünü öldürmə metodları arasında asma və dərmanla zəhərləyib öldürmə üsulu daha geniş yayılıb. Şahidlərin sözlərinə görə, meşənin içərisinə getdikcə yerdə plastik butulkalar, dərman qabları, çantalar tapmaq olar.

İntiharların qarşısını almaq məqsədilə yerli orqanlar bir sıra qabaqlayıcı tədbirlər görür. Meşənin girəcəyində üzərində **"Sizin həyatınız sizə valideynlərinizdən qalan qiymətli hədiyyədir. Onlar haqqında və ailəniz haqqında düşünün. Siz tənhalıqda əzab çəkməməlisiniz. Bizə zəng edin: 22-0110"** yazılmış plakata rast gəlmək olar.

Bundan başqa, San-Fransiskodakı Qızıl körpünü də yaddan çıxarmaq olmaz. Ora da insanların tez-tez intihar üçün baş vurduqları ünvanlardandır. İstanbulda isə intiharlar üçün "ideal" məkan sayılan yer Boğaz körpüsü idi. Bir zamanlar bu körpü az qala gündə bir neçə dəfə intihar cəhdinin və ardınca baş verən şousayağı hərəkətlərin məkanı olurdu. Hazırda isə körpüdə intiharların sayını azaltmaq üçün piyadaların gedişinə qadağa qoyulub.

**Sevinc TELMANQIZI**




# "Yevlaxlı Alik"in suç ortağı qanına qəltan edilib

## İcra başçısının oğlunun oğurlanmasında iştirak edən Elxan Hüseynova çoxsaylı xəsarətlər yetirilib

**Ötən sayımızda Yevlax avtovağzalının yaxınlığında qanlı olay barədə yazmışdıq. Yada salaq ki, mübahisə zəminində 1964-cü il təvəllüdlü Elxan Hüseynovla Yaşar Əlizadə bir-birilərinə bıçaq xəsarəti yetiriblər. Dekabrın 1-də baş vermiş qanlı olay zamanı E.Hüseynov Y.Əlizadənin üzünə "şram" atıb. Y.Əlizadə E.Hüseynovun əlindən bıçağı almağa müvəffəq olub və sonuncuya çoxsaylı xəsarətlər yetirib. Hər iki şəxs Yevlax Mərkəzi Xəstəxanasına yerləşdirilib.**

İlkin dindirmə zamanı E.Hüseynov yıxılaraq qarnına şüşə batdığını deyib. Lakin onun bu yalanının ömrü uzun olmayıb. Yaxınlıqdakı palatalardan birinə yerləşdirilən Y.Əlizadə ona xəsarəti Elxan Kommisar oğlu kimi tanıdığı bir şəxsin yetirdiyini söyləyib. Polislərə deyib ki, özü də həmin şəxsə bıçaq xəsarəti yetirib. Redaksiyamıza daxil olan məlumatda bildirilirdi ki, E.Hüseynov əvvəllər dəfələrlə həbsdə olub, Yevlaxda kriminal aləmin nümayəndəsi kimi tanınır. Yevlax Polis İdarəsindən vesti.az-a verilən məlumatda E.Hüseynovun əvvəllər həbsdə olduğu təsdiqlənib. Polisdən deyiblər ki, rayonda narkotik aludəçisi kimi tanınan bu şəxs sonuncu dəfə 8 il həbsxana həyatı yaşayıb. 1994-cü ildə o, kriminal aləmdə "Yevlaxlı Alik" kimi tanınan Əli Əliyev və qardaşı Bayram Əliyevlə birlikdə adam oğurlayıb. Oğurlanan o dövrdə Yevlağın icra başçısı olan Rafiq Nəsibovun yeniyetmə oğlu olub. Həmin vaxt Gürcüstana aparılan yeniyetmə orada gizlədilib və atasından külli miqdarda ödənc tələb olunub. "Yevlaxlı Alik" icra başçısı ilə danışıqlardan sonra oğlunu geri qaytarıb. Bunun əvəzində Nəsibov "Yevlaxlı Alik"ə o dövrün bahalı nəqliyyat vasitələrindən hesab olunan "VAZ-2109" markalı maşın və Yevlax Çörək Kombinatının bir hissəsini verib. Adam oğurluğundan əldə olunan mal-mülkdən E.Hüseynova nə çatdığı haqda məlumat yoxdur. Bu əməle görə Əliyevlər və Hüseynov 6 il sonra həbs olunublar. 2000-ci ildə məhkəmə qarşısına çıxarılan "Yevlaxlı Alik" ömürlük həbsə məhkum olunub, Hüseynov isə 8 il müddətinə azadlıqdan məhrum olunub. Hazırda E.Hüseynovun vəziyyətinin ağır olduğu bildirilir. Faktla bağlı Yevlax Rayon Polis Şöbəsinin istintaq bölməsində araşdırma aparılır.

**E.MƏMMƏDƏLİYEV**

# Yağış yağdı, Bakı iflic oldu



**Yenə Bakıya yağış yağdı. Yenə yağıntı suları magistral yollarda yığılıb qaldı, kanalizasiyalar dolub yollara daşdı, yollarda tıxaclar, səkilərdə gölməçələr yarandı.**

Dünəndən başlayaraq yağan yağış paytaxt sakinlərini çətin vəziyyətdə qoydu. Şəhərin bir çox istiqamətində avtomobillərin hərəkətində ciddi problemlər yarandı.

ANS PRESS-in məlumatına görə, Bakının Bakıxanov küçəsi, Yasamal rayonu və Yeni Yasamal yaşayış massivinin bəzi yerləri, "Nizami" metrosunun yaxınlığı, Binə qəsəbəsi su içində qalıb.

Sakinlərin bildirdiyinə görə, adıçəkilən yerlərdə hətta bəzi evləri də su basıb. Binaların zirzəmiləri su ilə dolub. Sakinlər deyir ki, məsələ ilə bağlı aidiyyatı qurumlara müraciət etsələr də heç bir reaksiya verilmir.

**Nərgiz LİFTİYEVA**





YENİ MÜSAVAT

Son səhifə

N 296 (6005) 4 dekabr 2014

# Gündə 4 saat telefonla danışırlar

Cənubi koreyalılar hər gün telefonla təxminən 4 saat danışırlar. Digieco & Nielsen Media Araşdırma qrupu tərəfindən 7 min 614 ağıllı telefon istifadəçisi arasında aparılan anket nəticəsində 30-40 yaş qruplarına daxil olan koreyalıların hər gün orta hesabla 3 saat 40 dəqiqə danışdığı müəyyənləşib. Eyni yaş qrupuna aid insanların eyni zamanda gündə bir saat internetdəki oyunlarla məşğul olduğu da qeyd edilib. O biri tərəfdən, anket nəticələrinə görə, 20 yaş qrupundakılar gündə orta hesabla 4 saat 41 dəqiqə telefonla danışır və gündə təxminən 1 saat mesajlaşırlar. Hər iki yaş qrupuna aid insanlar isə həftə sonları daha az mesajlaşırlar. Bu qrupdakılar həftə sonları daha çox internetdə oyun oynamağı tərcih edir.





## 110 min dollarlıq telefonunu itirdi...

Çində polislər bir nəfərin itmiş "Vertu" markalı telefonunu tapıb özünə qaytarıb. Telefonun qiyməti 110 min dollara yaxındır. Telefon Lin soyadlı bir kişi tərəfindən Vençjou şəhərinin aeroportunda unudulub. Aparat qızıldan hazırlanıb və üstündə 800 brilyant olub. Telefon sahibi onun itdiyindən duyuq düşən kimi bu barədə hüquq-mühafizə orqanlarına məlumat verib. Axtarışlara başlamaq üçün polislər öncə aeroportdakı müşahidə kameralarının qeydiyyatına nəzər salıblar. İlkin baxış zamanı müəyyən olunub ki, "Vertu"nu naməlum bir qadın götürüb. Qısa müddət sonra qadını Vençjou yaxınlığındakı kəndlərdən birində aşkarlayaraq aparatı ondan alıblar. Telefon sahibinin onu tapan üçün nəzərdə tutduğu 1625 dollar məbləğindəki mükafatdan polislər imtina edib. Buna bənzər hadisə Çində daha öncə də baş verib. Belə ki, 2014-cü ilin əvvəlində bir çinli taksi sürücüsü sərnişinlərdən birinin maşında unutduğu 27 min dolları ona qaytarmışdı.

# Universitetdən 100 beyin oğurlanıb



Texas Universitetindən 100 banka itib. Bankaların içində formal olaraq saxlanılan insan beyninin nümunələri olub. Universitetin alimləri kolleksiyanı təxminən 30 ildir ki, yığırmışlar. Universitetə orqanlar Ostina dövlət xəstəxanasından daxil olub. Məlum kolleksiyanın universitetdə etibarlı şəkildə saxlanacağı güman edilsə də, gözlənilən baş vermədi. Kolleksiyanın kuratoru Tim Şalert bildirib ki, oğurlanan nümunələr psixologiya kafedrasında saxlanıb. Kolleksiyanın zirzəmidə saxlanan hissəsinə isə əl vurulmayıb. Universitet işçiləri hesab edirlər ki, oğru tələbələrdən biri ola bilər. Oğurlanmış kolleksiya eksponatlarından biri Texas snayperi Çarlz Uitmenin beyni olub.

## Amerikada ən məşhur it adları...



2014-cü ildə ABŞ-da ən məşhur it adları Maks və Bella olub. Bu barədə heyvanlar üçün nəzərdə tutulmuş Vet Street internet portalının apardığı rəy sorğusunun nəticələrində qeyd edilib. Sözügedən nəşr daha çox veterinarların problemi ilə bağlı yazılar dərc edir. Son məqalə isə it sahibləri arasında keçirilən sorğunun nəticələrinə əsasən hazırlanıb. Saytda qeydiyyatdan keçən bütün it sahibləri 2014-cü ilin 1 yanvar tarixindən doğulmuş 969 it adını analiz edib. Reyitnqə əsasən, ən məşhur erkək cins it adları Maks, Çarli, Roki, Baddi, Kuper, Dyuk olub. Dişi cinsindən olan it adlarının siyahısına isə Bella başçılıq edir. Ondan sonrakı sıranı Deyzi, Lyusi, Seydi, Molli, Lola, Sofi paylaşır.



## 3 ikimərtəbəli avtobus boyda paltar...

Dizayn etdiyi cəsur və qeyri-adi paltarlarla gündəmə gələn Henri Holland adlı modaçı bu dəfə də hamını şoka salmağı bacarıb. İngiltərənin "The Daily Mail" saytının xəbərinə görə, modaçı dünyanın ən uzun paltarını hazırlayıb. Leeds adlı yeni bir alış-veriş mərkəzinin açılışı üçün hazırlanan paltar 15 metrlik uzunluğu ilə rekorda imza atıb. İngilis modaçının qəribə paltarı 3 ədəd ikimərtəbəli avtobus hündürlüyündə idi. Paltarı geyinmək üçün təbii ki, maneken tapılmamışdı. Amma modelliyi "Cirque Du Soleli" adlı məşhur sirkin akrobatlarından olan Colette Morrou öz üzərinə götürmüşdü. Bir hədiyyə qutusundan çıxaraq yuxarıya doğru iplərlə çəkilən Morronu alış-veriş mərkəzindəki minlərlə insan izləyib.




**QOÇ** - Ulduzların düzümü bu tarixdə xeyli işləyəcəyinizdən xəbər verir. Lakin buna görə usanmağınız əbəsdir. Çünki əziyyətinizin bəhrəsini mütləq görəcəksiniz. Həvəsiniz olsa, axşam qonaq gedin.

**BUĞA** - Əgər işləyirsinizsə, müəyyən mübahisələrlə rastlaşma ehtimalınız var. Bunu nəzərə alıb rəhbərliklə, eləcə də həmkarlarınızla mübahisələrdən yayının. Sərt mövqe nümayiş etdirməkdənsə, təmkinli olun.

**ƏKİZLƏR** - Göy qübbəsi bu təqvimi bütünlüklə sevgiyə həsr etməyinizi məsləhət görür. Yersiz qısqanclığa yol verməyin. Səmimi olun ki, rəğbət qazanasınız. Nahar ərəfəsində sürprizlər mümkündür.

**XƏRÇƏNG** - Dekabrın ən uğurlu günlərindən birini yaşayacaqsınız. İstər şəxsi büdcənizdə, istərsə də fəaliyyət zəminində uğurlarınız artacaq. Təşəbbüskarlığı mümkün qədər əldə saxlayın.

**ŞİR** - Kənar məsləhətlərdən nə qədər uzaq olsanız, bir o qədər rahatlıq tapacaqsınız. Yaxşı olar ki, ciddi qərarları yalnız ürəyinizin səsinə uyğun verəsiniz. Ümidsizlikdən uzaq olun.

**QIZ** - Sevgi münasibətlərini tənzimləmək üçün aktivliyinizi artırın. Daxili narahatçılığınızı aradan qaldırmaq istəyirsinizsə, qarşı tərəfə güzəştə gedin. Uzaq yola çıxmağa dəyər.

**TƏRƏZİ** - Yaxşı olar ki, bu gün fəaliyyətə bir qədər ara verəsiniz. Vaxtınızı daha çox əyləncə və səyahətlərə sərf edin. Axşama yaxın səhhətinizin qayğısına qalın. Ailə üzvlərinizlə mehriban davranın.

**ƏQRƏB** - Perspektivli görüşlərdə iştirak etmək üçün ulduzlar sizə yardımçı olacaqlar. Aldığınız təkliflər gələcək həyatınızda təkan rolunu oynayacaq. Odur ki, aktivliyinizi artırmalısınız.

**OXATAN** - Təzə xəbərlər yolunuzu gözləyir. Bu, daha çox yeni iş təklifləri və ya fəaliyyətdə sıçrayışlarla bağlı gözləntilərdir. Günün ikinci yarısında ürəyinizcə olan hadisələrlə rastlaşacaqsınız.

**OĞLAQ** - Əsəblərinizi gərginləşdirə bilən olaylara həvəs göstərməyin. Bütün umu-küsüləri bir tərəfə atıb reallığa uyğun hərəkət edin. Əsasən də ailə-sevgi münasibətlərinə diqqət ayırın.

**SUTÖKƏN** - Daxili sıxıntılarınızın artdığı bir ərəfədə mübahisəli situasiyalara meyl etməyin. Ümumiyyətlə, bu gün vaxtınızın çox hissəsini mənzil şəraitində keçirməyiniz məsləhətdir.

**BALIQLAR** - Ətrafınızda olan insanlarla mehriban ünsiyyət yaradın ki, çətinə-dara düşəndə dəstək almağa yeriniz olsun. İşlə bağlı atacağınız addımları dəfələrlə götür-qoy edin. Daha səmimi olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kişilər yeni tanış olduqları qadının gözünə baxır



İngiltərədə keçirilən bir araşdırma zamanı kişilərin qadınlarla ilk görüşdə onların harasına baxması məsələsi bir daha aydınlaşdırılıb. Daha öncə kişilərin qadınların sinəsinə diqqət yetirməsi ilə bağlı deyilənlər isə bu araşdırmada üzə çıxmayıb. Məlum olub ki, kişilər ilk dəfə tanış olduqları qadınların gözlərinə baxırlar. İkinci yerdə qadınların gülüşü, üçüncü yerdə isə onların sinəsi dayanır. Saçlar və çəki isə müvafiq olaraq dördüncü və beşinci sıradadır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.400

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.